# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 oktyabr 2025-ci il, çərşənbə
№ 186 (7013)
Qiymәti 60 qәpik




Milli azadlıqdan şirin nemət yoxdur!

**İlham Əliyev** @azpresident

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

5:40 PM · Oct 15, 2020 · Twitter Web App

Heydər Əliyev: Mən ona özüm qədər inanıram...

# Tariximizin 15 oktyabr Zirvəsi!



Bax səh. 3

## Qlobal siyasi səhnədə Azərbaycan adı




Bax səh. 2

## Donald Tramp Prezident İlham Əliyevin liderlik xüsusiyyətlərini yüksək dəyərləndirir

## Dünyaya Bakı nümunəsi: Regional münaqişələrdən qlobal sülh gündəminə



Bax səh. 4

## Azərbaycan Yaxın Şərq sülh dialoqunun əsas iştirakçısı kimi

### İslamabad Bəyannaməsində nələr var?

Bax səh. 5

### Regionun nəhəng sənaye platforması

Bax səh. 5

### Azərbaycan həqiqətləri ABŞ-da...

Bax səh. 6

### Qiymətlər artacaq, yoxsa?

Bax səh. 6

### Yaxın Şərqə sülh gəldi...



Bax səh. 7

### ABŞ-ın şərti var...



# Qlobal siyasi səhnədə Azərbaycan adı

## Dürüstlüyün, beynəlxalq hüquqa hörmətin, sabitlik və sülh təşəbbüslərinin simvolu...




## Donald Tramp Prezident İlham Əliyevin liderlik xüsusiyyətlərini yüksək dəyərləndirir

**Son 20 ildə qlobal mühitdə gedən proseslər yeni münasibətlər sisteminin formalaşmasına yol açıb. Belə ki, artıq dövlətlər qlobal əməkdaşlıq funksionallığına görə fərqləndirilir - paralel olaraq, qitələrarası, sivilizasiyalararası yeni siyasi-iqtisadi dialoqun inkişafı prioritet olaraq seçilir. Təsadüfi deyil ki, Azərbaycanın beynəlxalq aləmdəki mühüm və əhəmiyyətli yerinin müəyyənləşməsində də yeni əməkdaşlıq mühitinə verdiyimiz töhfələr əsas götürülür. Bəli, son onillikdə Azərbaycanın beynəlxalq siyasətdə qazandığı mövqe təkcə region səviyyəsində deyil, qlobal miqyasda da ön plana çıxıb. Bu uğurun əsasında isə düşünülmüş və çoxşaxəli xarici siyasət kursu, beynəlxalq hüquqa hörmət, qarşılıqlı maraqlara əsaslanan münasibətlər və sülh yönümlü diplomatiya dayanır.**

### Sözü imzası olan dövlət...

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son 20 ildə dünyanın siyasi və iqtisadi xəritəsində yeni bir güc mərkəzinə çevrilib. Bu gün Azərbaycan davamlı, qətiyyətli və praqmatik siyasəti sayəsində həm Qərb, həm də Şərq dövlətləri ilə bərabərhüquqlu əməkdaşlıq qurmağı bacaran nadir ölkələrdəndir. Azərbaycanın xarici siyasət fəlsəfəsi qarşıdurma yox, dialoq və əməkdaşlıq üzərində qurulub. Bu yanaşma onu müxtəlif maraqların toqquşduğu bir bölgədə - Cənubi Qafqazda legitim sabitlik və etimad adasına çevirib.

Məhz bu siyasətin nəticəsində Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş kimi qəbul olunur, onun sözünə və imzasına inanılır. Prezident İlham Əliyevin təşəbbüsləri sayəsində ölkəmiz BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər platformalarda fəal, bəzən də aparıcı rola sahib olub. Azərbaycanın diplomatiyasında əsas prinsip - qarşılıqlı hörmət, ədalət və beynəlxalq hüququn üstünlüyüdür. Bu yanaşma ölkəyə həm regionda, həm də qlobal miqyasda siyasi çəkisini artırmaqla yanaşı, onu müasir beynəlxalq münasibətlər sistemində etimad ünvanına çevirib.

### Liderlik missiyası...

Azərbaycanın bu uğurlarının mərkəzində Prezident İlham Əliyevin liderlik fəlsəfəsi dayanır. Dövlət başçısının xarici siyasət kursu milli maraqların qlobal sistemdə qorunması və yüksəldilməsi strategiyasına əsaslanır. Prezident İlham Əliyev diplomatiyada ardıcıllıq, dəqiqlik və uzaqgörənlik nümayiş etdirərək, Azərbaycanı qlobal siyasi gündəmin mühüm aktorlarından birinə çevirib. Onun beynəlxalq siyasətdə formalaşdırdığı obraz sözübütöv, qərarlarında prinsipial, dostluqda sadiq, razılaşmalarda etibarlı lider obrazıdır. Bu keyfiyyətlər İlham Əliyevin həm regional, həm də qlobal səviyyədə hörmətlə qəbul olunmasının əsas səbəblərindəndir. Dünyanın aparıcı liderləri, beynəlxalq təşkilat rəhbərləri və nüfuzlu media strukturları Azərbaycan Prezidentinin siyasi müdrikliyini, danışıqlarda balanslı və realist mövqeyini hər zaman qeyd edirlər.

Azərbaycanın həm enerji siyasətində, həm də sülh təşəbbüslərində göstərdiyi müstəqil və məsuliyyətli mövqe ölkənin beynəlxalq reputasiyasını daha da möhkəmləndirib. Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan "Cənub Qaz Dəhlizi" Avropanın enerji xəritəsini dəyişdirərək Azərbaycanı enerji təhlükəsizliyinin aparıcı təminatçısına çevirib. Eyni zamanda, Azərbaycan bu gün Qərb və Şərq, Şimal və Cənub arasında diplomatik körpü rolunu oynayır. Bu, həm coğrafi, həm də siyasi baxımdan balanslı liderlik strategiyasının nəticəsidir.




### Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə

Bəlli olduğu kimi, rəsmi Vaşinqton dünyanın iqtisadi-siyasi nəbzini formalaşdıran mühüm güc mərkəzlərindən biri sayılır. Nəhəng iqtisadiyyata, müqayisəyəgəlməz siyasi çəkiyə malik olan bu dövlətin son proseslərdə qlobal kataklizmlərə münasbətindəki fundamental dəyişiklik olduqca vacib bir amildir - Donald Trampın "sülh prezidenti" kimi çıxış etməsi çox şeydən xəbər verir. Bu gün ABŞ açıq şəkildə yeni dövrdə Bakıya etibar etdiyini və ölkəmizin sülh uğrunda ortaya qoyduğu səyləri dəstəklədiyini bildirir. Donald Trampın prezident seçilməsindən sonra Prezident İlham Əliyevə ünvanladığı məktublarda da əməkdaşlığın gücləndirilməsi, əlaqələrin intensivləşdirilməsi kimi mövzular açıq şəkildə ifadə olunur.

Bir sözlə, son dövrlərdə iki ölkə arasında münasibətlərdə yeni dinamika yaranıb. Tramp administrasiyası enerji təhlükəsizliyi, antiterror əməkdaşlığı və regional sabitlik məsələlərində Azərbaycanı etibarlı tərəfdaş kimi dəyərləndirir. Bu gün Vaşinqton Bakı ilə münasibətlərdə daha realist və praqmatik baxış formalaşdırıb. Qeyd edildiyi kimi, Donald Trampın Azərbaycan və Prezident İlham Əliyev barədə səsləndirdiyi fikirlər bu münasibətlərin qarşılıqlı hörmət və inam üzərində qurulduğunu göstərir. Xüsusilə, bu ilin avqustunda Vaşinqtonda keçirilən beynəlxalq forumda Tramp İlham Əliyevi "böyük lider" adlandıraraq qeyd etmişdi ki, "Azərbaycan dünyada sabitliyin qorunmasında və əməkdaşlığın təşviqində mühüm rol oynayır".

Trampın bu sözləri təkcə diplomatik kompliment deyildi. O, həm də ABŞ siyasi elitasında Azərbaycanın regiondakı mövqeyinə, Prezident İlham Əliyevin liderliyinə və müstəqil siyasətinə verilən qiymətin göstəricisidir. Tramp dövründə ABŞ rəsmiləri dəfələrlə Azərbaycanın terrorizmə qarşı mübarizədə, enerji bazarlarının sabitliyində və regional təhlükəsizlikdəki rolunu yüksək qiymətləndiriblər.

Azərbaycanın ABŞ ilə əlaqələrində ən diqqətçəkən məqam isə münasibətlərin qarşılıqlı maraq və bərabərhüquqlu əməkdaşlıq prinsipi üzərində qurulmasıdır. Bu, Azərbaycanın müstəqil xarici siyasət fəlsəfəsinin ən vacib ştrixlərindəndir.

### Donald Trampın Azərbaycan Prezidenti barədə yüksək fikirləri...

Misirdə keçirilən Yaxın Şərq Sülh Sammitində də eyni mənzərənin şahidi olduq. Bəlli olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev həmin tədbirdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə iştirak edirdi. Oktyabrın 13-də baş tutan Sammitdə Prezidenti Donald Tramp dövlətimizin başçısını salamlayıb. Sammitdə Prezident Donald Tramp Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünə toxunaraq deyib: "Budur, mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Azərbaycan, işimi bəyəndinizmi? Bəs Sizin həmkarınız haradadır? Budur, buradadır. Siz ikiniz artıq yola gedirsiniz, elə deyilmi? Onlar 32 il müharibə etdilər, biz isə bir saata bu məsələni həll etdik, elədirmi? İndi onlar yola gedirlər, bu yaxşıdır, düşünürəm ki, bu əladır".

İmzalanma mərasimindən sonra bəyanatla çıxış edərkən ABŞ Prezidenti Donald Tramp Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlərə toxunaraq bildirib: "Burada Ermənistan və Azərbaycan var. Biz bu müharibəni bitirdik. Mənim onlarla görüşüm Oval ofisdə baş tutdu. Onlar 31 il vuruşdular, ağlasığmaz bir rəqəmdir. Oval ofisdə bir-birinə əks tərəfdə əyləşmişdilər. Bir saatdan sonra işimiz bitəndə hər ikisi bir-birini qucaqlayırdı. İndi də onlar dostdurlar və çox gözəl anlaşırlar. Ona görə də hər ikinizə təşəkkür etmək istəyirəm. Bu, həqiqətən inanılmazdır. Çox sağ olun".

Qeyd edək ki, Trampın bu münasibəti təsadüfi deyil - ABŞ prezidenti liderlər arasında fərqlənən keyfiyyətlərə xüsusi diqqət yetirir: güclü qərarvermə, milli maraqlara sadiqlik və sözünə əməl etmək kimi yüksək keyfiyyətlər Azərbaycan Prezidentinə dünya liderləri arasında xüsusi mövqe qazandırır. Azərbaycanın beynəlxalq siyasətdə oynadığı konstruktiv rol, xüsusilə də enerji, sülh və dialoq sahəsindəki təşəbbüslər Vaşinqtonun da diqqət mərkəzindədir. Bu cür açıqlamalar Azərbaycanın beynəlxalq nüfuzunun artıq regional çərçivədən çıxaraq qlobal dəyərə çevrildiyini göstərir.

### Qlobal nüfuz: sülh, sabitlik və əməkdaşlıq modeli

Vaşinqton ilə Bakı arasında dialoqun ən mühüm komponentlərindən biri məhz qlobal sülh gündəliyi və bu gündəliyrin təşviqidir. Azərbaycan bu gün beynəlxalq münasibətlərdə sabitlik və əməkdaşlıq modeli kimi göstərilir. Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkə son illərdə həm enerji diplomatiyasında, həm də humanitar sahədə böyük nailiyyətlər əldə edib. Bakı Humanitar Forumu, Qoşulmama Hərəkatının Zirvə görüşləri, COP29-un ev sahibliyi kimi nüfuzlu tədbirlər Azərbaycanın etimad ünvanı olmasının göstəricisidir. Azərbaycanın sülh təşəbbüsləri də beynəlxalq miqyasda dəstəklənir. 2020-ci il Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin Cənubi Qafqazda sülh gündəliyi formalaşdırmaq istiqamətində atdığı addımlar ölkəni regionun aparıcı diplomatik mərkəzinə çevirib. Bu siyasət dünyanın müxtəlif paytaxtlarında Azərbaycanın nüfuzuna real dəyər qazandırıb. İndi Azərbaycanla əməkdaşlıq etmək, Bakının mövqeyini nəzərə almaq beynəlxalq diplomatiyada vacib şərtə çevrilib.

Azərbaycan dövlətinin bütün məsələlərə yanaşmada sərgilədiyi vahid mövqe var: beynəlxalq hüquqa söykənən, ədaləti və haqqı tərənnüm edən yanaşma. Dünyanın idarəetmə sisteminin əsasında da bərabərlik, beynəlxalq münaqişələrin sülh yolu ilə həll edilməsi, bir ölkənin digər ölkəyə güc tətbiq etməsindən imtina etməsi, dövlətlərin daxili işlərinə qarışmamaq, insanların əsas hüquq və azadlıqlarına hörmət etmək, eləcə də bərabərhüquqlu əməkdaşlıq kimi prinsiplər dayanmalıdır.

### Azərbaycanın dünyaya verdiyi mesajlar...

Bakının qlobal mühitdə əldə etdiyi nüfuz dövlətin sabit, şəffaf və uzaqgörən siyasətinin uğurla inkişaf etdirilməsinə söykənir. Prezident İlham Əliyevin qlobal səviyyədə qazandığı hörmət, Donald Tramp kimi nüfuzlu liderlərin ona olan yüksək münasibəti bu siyasətin uğurla aparılıdığını sübuta yetirir. Azərbaycan bu gün dünyada sülh, əməkdaşlıq və rifahın tərəfdarı kimi çıxış edir. Onun xarici siyasət kursu qarşıdurma yox, əməkdaşlıq, təzyiq yox, tərəfdaşlıq, maraqların toqquşması yox, uzlaşması üzərində qurulub.

Prezident İlham Əliyevin şəxsi diplomatik nüfuzu, Trampın timsalında dünyanın aparıcı liderlərinin etimadı və beynəlxalq aləmdə artan hörmət Azərbaycanın dövlət imicini daha da möhkəmləndirib. Azərbaycan artıq regional deyil, qlobal sabitliyin formalaşmasında əsas oyunçulardan birinə çevrilib. Sülh, inkişaf və rifah - bu, Azərbaycanın dünya siyasətində təqdim etdiyi mesajdır. Və bu mesaj bu gün dünyanın bir çox liderləri, o cümlədən Donald Tramp tərəfindən də açıq şəkildə qəbul edilir.

*Pərviz SADAYOĞLU*



# Tariximizin 15 oktyabr Zirvəsi!

**Bu gün müstəqil Azərbaycan zirvələrdədir, xalqımız öz keşməkeşli tarixinin ən qüdrətli dönəmini yaşayır. Ölkəmiz xarici siyasətində ardıcıl uğurlara imza atır. Bu gün dünyada Azərbaycana və onun Lideri Prezident İlham Əliyevə böyük hörmət bəslənilir, bayrağımız ən mötəbər beynəlxalq təşkilatların önündə əzəmətlə dalğalanır. Azərbaycanın beynəlxalq nüfuzunun artmasını şərtləndirən əsas amillərdən biri qismində isə ölkənin güclü potensialı, hər cəhətdən müsbət olan reallıqları çıxış edir. Azərbaycan dünyada azsaylı ölkələrdən biridir ki, nümunəvi inkişaf modelinə malikdir və yüksək vətəndaş məmnunluğu yaradan dərin məzmunlu sosial siyasət həyata keçirir, ədalətli resurs bölgüsünü təmin edir. Respublikamız ən böyük uğuruna - ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasına da sırf öz gücünə nail olub. Belə uğurlu siyasətin təməli isə tarixin bu günündə - 15 oktyabr 2003-cü ildə qoyulub. Həmin gün müstəqil Azərbaycanda növbəti Prezident seçkiləri keçirilib. Seçkilərdə İlham Əliyev mütləq səs çoxluğu ilə - seçicilərin 76,86 faizinin səsini qazanmaqla ilk dəfə ölkənin dövlət başçısı seçilib. Artıq iyirimi ildən çoxdur ki, müstəqil Azərbaycan müdrik Liderinin rəhbərliyi ilə özünün uğur hekayəsinin yeni-yeni səhifələrini yazır.**



## 15 oktyabr 2003 - 15 oktyabr 2023...

### Niyə məhz İlham Əliyev?

Hər bir uğur bünövrədən başlayır. Əgər özül möhkəm qoyulubsa, onun üzərində ucalan bina da dayanıqlı və uzunömürlü olacaq. Bəs 22 il bundan əvvəl ölkədə baş tutan növbəti Prezident seçkilərində seçicilər nə üçün öz səslərini məhz İlham Əliyevə veriblər?

2003-cü il 15 oktyabr seçkilərinin nəticələrini şərtləndirən iki mühüm amili xüsusi qeyd edə bilərik. Seçkilərdə yeni Azərbaycan Partiyasının (YAP) namizədi İlham Əliyevin böyük üstünlüklə qalib gəlməsinə təsir göstərən mühüm məqamlardan biri kimi, Azərbaycan xalqının özünün böyük oğlu, ulu öndər Heydər Əliyevin şəxsiyyətinə hörmət və ehtiramını, Onun əsasını qoyduğu siyasətə inamını qeyd edə bilərik. İdeoloji cəhətdən iki fərqli formasiyada respublikamıza rəhbərlik edən Heydər Əliyev Azərbaycanın intibahı üçün fundamental əsaslar yaradan tarixi şəxsiyyətdir. XX yüzillikdə ikinci dəfə qazandığımız müstəqilliyimizin xilası da məhz bu böyük şəxsiyyətin adı ilə bağlıdır. Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanın siyasi rəhbərliyinə gəlməklə ölkəni xaos, anarxiya vəziyyətindən çıxardaraq sabitliyə və inkişafa istiqamətləndirib.

Heydər Əliyevin Özü və xalqımız yaxşı başa düşürdü ki, Azərbaycanın nicatı, müstəqilliyimizin qorunması, gələcək inkişafımız məhz bu siyasətin ardıcıllığının təmin edilməsindən asılıdır. Daim Azərbaycanın gələcəyini düşünən Heydər Əliyev seçkilərdən bir qədər əvvəl-2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət ünvanlayaraq öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirib və seçiciləri Prezidentliyə namizəd, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıb. Həmin tarixi müraciətdə oxuyuruq: “O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Azərbaycan xalqı Heydər Əliyevin bu çağırışını məmnuniyyətlə qəbul etdi. Seçkilərin təyin olunduğu gün seçki məntəqələrində, sözün əsl mənasında, böyük qələbəlik yaşanırdı. İnsanlar sübh tezdən dəstə-dəstə seçki məntəqələrinə gəlir və burada öz iradələrini ifadə edirdilər.

22 il bundan əvvəl baş tutan seçkilərin nəticələrini şərtləndirən ikinci mühüm amil bilavasitə İlham Əliyevin Özünün həmin dövrədək daşıdığı müxtəlif vəzifələrdə uğurla çalışması, etimadı yüksək səviyyədə doğrultması ilə bağlı idi. Bu gün narahat, ziddiyyələrlə dolu dünyada Azərbaycanın qazandığı uğurlar əyani şəkildə təsdiqləyir ki, müasir dövr siyasətçilərinə verilən bütün tələblər İlham Əliyevdə cəmləşib. Yüksək intellekt, yaxşı təhsil, idarəetmədə mükəmməl təcrübə, siyasi konyukturanı bilməsi, ən əsası isə xalqa yaxınlığı, milli maraqlarımıza sadiqliyi Onu seçkilərə qatılan digər namizədlərdən fərqləndirirdi. Onun keçdiyi yol qürurverici idi. O, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu və müəllimi olmuşdu. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti vəzifələrində çalışmışdı. Azərbaycanlı seçicilər Onun Milli Məclisin deputatı, Avropa Şurasının Parlament Assambleyasındakı daimi nümayəndə heyətimizin başçısı olarkən əldə etdiyi uğurları yaxşı xatırlayırdılar. İlham Əliyev ARDNŞ-in birinci vitse-prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti (1997-ci ildən etibarən), həm də Azərbaycan Respublikasının Baş naziri kimi çalışdığı bütün vəzifələrdə (2003-cü ilin avqustundan sonra) mükəmməl bir idarəçilik yolu keçmişdi. İlham Əliyev 1999-cu ildə Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının Sədr müavini, 2001-ci ildə isə Sədrin 1-ci müavini seçilmişdi. Bütün sadalanan vəzifələrdə İlham Əliyev Ona göstərilən etimadı ən yüksək səviyyədə doğrultmuşdu. Bu da seçicilərin İlham Əliyevin namizədliyini dəstəkləməsi üçün əsas oldu.

### Heydər Əliyev: Mən ona özüm qədər inanıram...



## Qərinələrə bərabər 22 il!

### Verilən vədlər, yüksək səviyyədə doğrulan etimad

“Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik”. 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi bu fikirdə göstərilən hədəflərin hər biri bu gün real həyatda öz əksini tapıb. İlham Əliyevin andiçmə mərasimində verdiyi vədlər məzmunca taleyüklü olduğu kimi, son 22 ildə keçilən yol da qərinələrə bərabərdir, Azərbaycan xalqı Ona bəslənən etimadın yüksək səviyyədə doğrulduğuna şahidlik edir və bundan qürur duyur. Prezident İlham Əliyevin vəd verdiyi kimi, Ulu Öndərin əsasını qoyduğu siyasətə sadiq qalması Azərbaycanın ən böyük uğuru və xalqımızın ən böyük xoşbəxtliyidir. Siyasi varisliyin təmin edilməsi ölkəmizi bəzi dövlətlərin timsalında müşahidə etdiyimiz pis nümunələrdən - geri dönmələrdən qoruyub və davamlı inkişafa istiqamətləndirib.

Ulu Öndərin “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” fikri son 22 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas leytmotivini təşkil edib. Dövlət başçısının imzaladığı sənədlər əsasında aparılan islahatlar, müvafiq Dövlət proqramlarının uğurla reallaşdırlması, regionların tarazlı inkişafına nail olunması, sahibkarlıq mühitinin optimallaşdırılması, ölkə boyunca infrastruktur təminatının yüksək səviyyəyə çatdırlması, qanuvericilik bazasının möhkəmləndirlməsi, investisiyaların qorunmasına təminatlar verilməsi, qeyri-neft sektorunun inkişafının davamlı təşviqi və digər belə tədbirlər respublikamızda rəqabətə davamı iqtisadiyyatın formalaşması ilə nəticələnib. Prezident İlham Əliyev son 22 ildə Azərbaycanı iqtisadi cəhətdən tam müstəqil dövlətə çevirib. Bugünkü kataklizmlərlə dolu olan dünya reallığında suverenlik anlayışını heç də bütün dövlətlərə şamil etmək mümkün deyil. Bəzi dövlətlərin iqtisadi resursları zəifdir, digər bir qism dövlətlərin liderləri müstəqil siyasi iradəyə malik deyillər. Bu və başqa amillərə görə də həmin ölkələr digər dövlətlərin forpostu qismində çıxış edirlər. Belə dövlətlərin müstəqilliyi və suverenliyi şərti səciyyə daşıyır. Azərbaycanın nümunəsi isə fərqlidir. Güclü iqtisadi-maliyyə dayaqlarına malik olan respublikamız hansısa bir məsələni həll etdikdə kənardan, xarici ölkələrdən və beynəlxalq qurumlardan kömək ummur, öz problemlərini özü həll edir. Prezident İlham Əliyev həmişə vurğulayır ki, iqtisadi cəhətdən müstəqil olmayan dövlət siyasi cəhətdən də müstəqil ola bilməz. Biz qürur duyuruq ki, son iyirimi ildən artıq müddətdə dövlətimizin başçısının müdrik siyasətinin nəticəsi olaraq Azərbaycanın iqtisadi müstəqilliyi və bu əsasda siyasi müstəqilliyi tam təmin olunub. Bu gün ölkəmizin qərarları hansısa paytaxtlarda deyil, məhz Bakıda, məhz Prezident İlham Əliyev tərəfindən verilir.

## Prezident İlham Əliyevin tarixi missiyası

İşğalçı Ermənistan ötən əsrin 90-cı illərinin əvvəllərində torpaqlarımızın 20 faizini o zaman müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanda AXC-“Müsavat” cütlüyünün xəyanəti nəticəsində baş verən mənfi proseslərdən, hakimiyyət boşluğundan, hərc-mərclikdən, həmrəyliyin təmin olunmamasından istifadə etməklə və havadarlarının dəstəyindən bəhrələnməklə işğal etmişdi. Mənfur düşmən beynəlxalq birlik tərəfindən tanınan ərazilərimizi zor tətbiq etməklə işğal altına alanda və sonrakı mərhələdə ağır müharibə cinayətlərinə əl atdı. Belə ki, bu işğal nəticəsində soydaşlarımız doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qaldılar. Qaçqın və məcburi köçkünlərin sayı bir milyonu ötmüşdü və bu, ölkəmiz üçün böyük humanitar fəlakət idi.

Təbii ki, Azərbaycan dövləti və xalqı ölkə ərazisinin bir hissəsinin işğal altına düşməsi faktı ilə heç vaxt barışmadı. Dövlət başçısı seçildiyi vaxtdan Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyünün təmin olunması məsələsini Azərbaycanın gündəliyinin mərkəzində saxladı. Dövlətimizin başçısı yerli və xarici auditoriyalar qarşısında çıxışlarında ölkəmizin keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini qətiyyətlə və yüksək diplomatik məharətlə dünya ictimaiyyətinin diqqətinə çatdırır, eyni zamanda, ölkəmizin milli gücünün artırılmasına hesablanan ardıcıl siyasət həyata keçirirdi. Beləliklə də, özünün iqtisadi müstəqilliyinə nail olan Azərbaycan, həmçinin istənilən xarici təhdidi dəf etməyə və düşmənin başını əzməyə qadir olan güclü ordu qurmağa nail oldu.

Azərbaycan düşməni məhz özünün güclü Ordusu ilə cəzalandırdı və torpaqlarını işğaldan azad etdi. Əlbəttə, Vətən müharibəsində şanlı qələbəmiz asanlıqla əldə olunmayıb. Torpaqlarımızı geri qaytarmaq fikrində olmayan məkrli düşmən onilliklər ərzində burada güclü istehkamlar qurmuşdu. İşğalçılar elə düşünürdülər ki, Azərbaycan Ordusu bu istehkamları heç vaxt keçə bilməyəcək. Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüşən Azərbaycan Ordusu 44 gün ərzində düşməni diz çökdürdü. Vətən müharibəsində qazanılan Zəfər sayəsində ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla təmin olundu.

## Liderlik fenomeni, milli gücün konsolidasiyası

Dünya tarixindən liderlərin ölkələrin, xalqların taleyində müstəsna rol oynadıqlarına aid çoxlu sayda nümunələr gətirmək mümkündür. Bizim tariximizdə böyük siyasətçi Heydər Əliyev Azərbaycanın güclü iqtisadi, siyasi və ideoloji əsaslarını yaradan Lider kimi əbədi qalacaq. Son 22 ildə isə Azərbaycan cəmiyyəti böyük məmnuniyyətlə Prezident İlham Əliyevin liderliyini qəbul edir. Azərbaycan Prezidentinin liderliyi mücərrəd deyil, əksinə konkret məzmuna malikdir və real məqsədləri hədəfləyir. Dövlətimizin başçısı zamanın nəbzini tutur, yaranan yeni çağırışlara uyğun prioritetlər müəyyənləşdirir, milli gücün yenilənən ideyalar ətrafında konsolidasiyasını təmin edir. Bu gün Azərbaycan ona görə güclü dövlətdir ki, onun İlham Əliyev kimi Lideri var. İlham Əliyev isə ona görə fateh Liderdir ki, Onun arxasında yenilməz güc - xalq var. Bu vəhdət Vətənimizi zəfərlərdən zəfərlərə daşıyır. İlk baxışda elə təsəvvür yarana bilər ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam təmin etməklə hədəflərinə çatıb, daha gərgin fəaliyyətlərə, qüvvələrin səfərbər edilməsinə ehtiyac yoxdur. Ancaq İlham Əliyevin liderliyi ilə Azərbaycan dayanmır. Dövlət başçısı cəmiyyəti yeni strateji mərhələdə yeni ideyalarla silahlandırır və Özü qabaqda gedərək ölkəni arxasınca aparır.

Son 22 ildə ölkədə xalq-iqtidar həmrəyliyini təmin etməsi, respublikamızı “idarə olunan xaos” ssenarilərindən qoruması Prezident İlham Əliyevin ən böyük uğurlarından biridir. O, beynəlxalq münasibətləri nəzəri və empirik səviyyədə dərindən bildiyi üçün İslamofob dairələrin və anti-Azərbaycan mərkəzlərin ölkəmizdə həyata keçirmək istədikləri rəngli inqilab planını məharətlə pozub, xalqımızı etnik, siyasi və ideoloji qarşıdurmadan qoruyub. Bəlli mərkəzlərin ayrı-ayrı ölkələrdə reallaşdırmağa nail olduqları “lidersizləşdirmə, ideologiyasızlaşdırma və dövlətsizləşdirmə” siyasətinin nə qədər ağır fəsadlara yol açdığı hər kəsə bəllidirr. Ölkələrin tarixi kökləri məhv edilir, milli-mənəvi dəyərlər aşılanır, cəmiyyətlər məqsədli şəkildə manqurtlaşdırılır. Bir neçə dəfə cəhd göstərilsə də, Azərbaycanda belə ssenariləri həyata keçirmək mümkün olmayıb. Respublikamızda demokratik inkişaf yolunda həyata keçirilən sistemli tədbirlərin qanunauyğun nəticəsi kimi işlək və təhdidlərə qarşı immuniteti yüksək olan siyasi sistem formalaşıb. Siyasi partiyalar sərbəst şəkildə fəaliyyət göstərməklə yanaşı, ümummilli məsələlərdə dövlətlə həmrəylik nümayiş etdirirlər.

Eyni zamanda, Prezident İlham Əliyev dünya üzrə azsaylı liderlərdəndir ki, multikulturalizmi hər zaman təşviq edir. Burada da dövlətimizin başçısı ölkəmizin tarixi ənənələrinə və bugünkü reallıqlarına əsaslanır.

Prezident İlham Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən bəhs edərkən demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlər xüsusi vurğulanmalıdır. Tərəddüdsüz qeyd etmək olar ki, demokratik inkişaf yolunda həyata keçirilən sistematik tədbirlərin qanunauyğun nəticəsi kimi Azərbaycanda təkmil siyasi sistem bərqərar olunub. Qanunvericilik bazasının təkmilləşdirilməsi, hüquq və azadlıqların təmin olunması istiqamətində görülən tədbirlər, siyasi plüralizmin dəstəklənməsi, çoxpartiyalı sistemin inkişafı və digər istiqamətlər üzrə prioritet hesab olunan prinsiplər ölkədə davamlı demokratik cəmiyyətin inkişafından xəbər verir.

## Xankəndidə Azərbaycan Bayrağının ucaldılması

Vətən müharibəsində möhtəşəm Zəfərə imza atsaq da, hələlik tarixi missiyamız tamamlanmamışdı. Bəziləri düşünürdü ki, Azərbaycan 2020-ci ilin 10 noyabrında imzalanan üçtərəfli Bəyanatla təsbit edilmiş status-kvonu dəyişməyə cürət etməyəcək və Şuşanın azad edilməsi bizim üçün maksimal hədd olacaq. Onlar bunu belə əsaslandırırdılar ki, beynəlxalq aləm ermənilər yaşayan Azərbaycan ərazisində hər hansı əməliyyat keçirməyə və bu ərazilər üzərində respublikamızın nəzarətini bərpa etməyə imkan verməyəcək. Həmin dövrdə əsasən Qərb ölkələrinin tutduğu mövqe, verilən bəyanatlar belə proqnozlar üçün ciddi əsaslar yaratmışdı.

Lakin heç vaxt başladığı işləri yarımçıq qoymayan və bütün fəaliyyəti boyunca “nəyi, nə zaman və necə” etməyin ən yaxşı nümunələrini göstərən Azərbaycan Prezidenti İlham Əliyevin suverenlik və ərazi bütövlüyü anlayışı heç bir zaman müharibənin nəticələri ilə məhdudlaşmayıb. Sonrakı 3 il ərzində həyata keçirilən siyasət və görülən bütün işlər prosesin davamı olub və 2023-cü il sentyabrın 19-20-də həyata keçirlən 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticəsində ərazilərimizdə separatizmin kökünün tamam kəsilməsi ilə öz məntiqi sonluğuna çatıb. Bütün təzyiqlərə və hədələrə baxmayaraq, Prezident İlham Əliyev uzaqgörənliklə, praqmatik şəkildə, barışmaz prinsipiallıq və qəti iradə nümayiş etdirərək tarixi missiyasını tamamlamaqla Xankəndidə Azərbaycanın dövlət bayrağının ucaldılacağı günü yaxınlaşdırıb.

Və o gün gəldi. Uğurlu lokal xarakterli antiterror tədirərindən sonra da biz tariximizdə əbədi qalacaq anlara şahidlik etdik. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Onun üçün əlamətdar olan bir gündə - dövlət başçısı seçilməsinin 20 ilinin tamamında antiterror tədbirlərində separatçılardan təmizlənən ərazilərimizdə, o cümlədən Xocalıda və Xankəndidə Azərbaycan Bayrağını ucaltmaqla bizlərə sonsuz qürur hissi yaşatdı. Bu gün ölkənin bütün ərazisində suverenliyimiz tam təmin olunub və bayrağımız əzəmətlə dalğalanır.

Ötən ilin əvvəlindən isə suveren Azərbaycanın həyatında iki mühüm hadisə baş verib. Ölkənin bütün ərazisində fevral ayında Prezident, sentyabr ayında isə parlament seçkiləri baş tutub. Beləliklə, müstəqillik tariximizdə ilk dəfə olaraq Prezident və parlament seçkiləri Xankəndi və Xocalı da daxil olmaqla ölkənin bütün ərazilərində keçirilib. Bunu yüksək dəyərləndirən Prezident İlham Əliyev “... Prezident və parlament seçkiləri bütün ərazilərdə keçirilərək bir daha Azərbaycan xalqı öz iradəsini ortaya qoydu”, - deyə vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Dünyaya Bakı nümunəsi: Regional münaqişələrdən qlobal sülh gündəminə

## Azərbaycan Yaxın Şərq sülh dialoqunun əsas iştirakçısı kimi



## Azərbaycan qlobal diplomatiyanın aparıcı dövlətlərindəndir - Yaxın Şərqdə sülhə yönələn yeni mərhələ...

**Dünyanın siyasi-hərbi reqlamenti dəyişməkdədir - başqa sözlə, dünya artıq kataklizmlərdən, qarşıdurmalardan və geosiyasi gərginliklərdən yorulub. Bunun nəticəsidir ki, qlobal sistemin sabitliyi hərbi gücdə deyil, qarşılıqlı anlaşmada və dialoqda axtarılır. Bu gün sülh təkcə mənəvi dəyər deyil, həm də dövlətlərin davamlı inkişafının, iqtisadi inteqrasiyanın və bəşəri tərəqqinin əsas şərtinə çevrilib. Müasir dövrdə beynəlxalq münasibətlər sistemində yaranan yeni xəritə məhz əməkdaşlıq üzərində qurulmalıdır - bunu dərk edən beynəlxalq aləm yeni sistemdə hərbi qarşıdurmaları davamlı sülh və danışıq prosesi ilə əvəzləməyə çalışır. Çünki hətta kiçik regional qarşıdurmalar və münaqişələr təkcə lokal məkanlara deyil, bütün dünya iqtisadiyyatına və enerji təhlükəsizliyinə təsir göstərir. Buna görə də sülh - yalnız humanitar deyil, həm də geosiyasi prioritetə çevrilib. Yaxın Şərq isə dünyanın ən həssas nöqtələrindən biri olaraq, onilliklər boyu sabitliyə deyil, qarşıdurmaya köklənmiş, qarşıdurmaların yaşandığı məkan kimi xarakterizə olunub. Belə demək mümkündürsə, Yaxın və Orta Şərqdə baş verən əksər hadisələr qlobal siyasətin nəbzinə ən yüksək təsirə malik olub, beynəlxalq münasibətlərə fərqli ton və yön verib. Bu gün isə həmin coğrafiyada da vəziyyət dəyişməyə məhkumdur. Dünya ictimaiyyəti, böyük güclər və regional liderlər artıq anlayır ki, sabit Yaxın Şərq olmadan nə Avropa, nə Asiya, nə də Afrika tam sabitlik və rifah içində ola bilməz, iqtisadi əməkdaşlıqlar gözlənən effekti verə bilməz. Misirdə keçirilən Yaxın Şərq Sülh Sammiti bu baxımdan tarixi hadisədir. Sammitin çağırılması və məqsədi göstərir ki, bəşəriyyət artıq qarşıdurmadan deyil, əməkdaşlıqdan qazanc əldə etmək istəyir.**

## Azərbaycan: sülh çağırışının simvolu

Sirr deyil ki, Azərbaycan hər zaman sülhün və dialoqun tərəfdarı olub. Ölkə 30 il işğala məruz qalaraq yaşasa da, heç vaxt revanşist düşüncə ilə çıxış etməyib. Əksinə, beynəlxalq hüquqa, diplomatik normalara əsaslanaraq, haqlı mövqeyini siyasi və hüquqi müstəvidə müdafiə edib. 44 günlük Vətən müharibəsi bu ədalətin bərpası, beynəlxalq hüququn reallaşması və regionda yeni sülh reallığının başlanğıcı oldu.

Azərbaycan bu gün də sülhün həm ən böyük çağırışçısı, həm də onun praktik təminatçısıdır. 2022-ci ildən start verdiyi prosesə ölkəmiz Cənubi Qafqazda postmünaqişə sülh dövrünün modelini yaradıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə regionda sülh müqaviləsi istiqamətində aparılan danışıqlar göstərir ki, Azərbaycanın diplomatik fəlsəfəsinin əsasında "qarşılıqlı etimad və əməkdaşlıq" prinsipi dayanır. Məhz bu təcrübəyə görə, Azərbaycan beynəlxalq aləmdə sülhün praktiki tərəfdarı kimi qəbul olunur.

Bakı Yaxın Şərq məsələlərində də oldaqca aktiv bir mövqeyə sahibdir. Ölkəmizin Yaxın və Orta Şərq regionundakı konfrantasiyaların həlli prosesində nümayiş etdirdiyi uğurlu vasitəçilik missiyası bütün dünya tərəfindən təqdir olunur. Azərbaycan bu missiyanı yerinə yetirərkən ədalətin və beynəlxalq hüququn tərəfdarı kimi çıxış edir - səmimi sülhün yaranması üçün vasitəçi rolda olan dövlət və ya təşkilatların prosesə aydın, birtərəfli olmayan, ümumi mənaeyə əsaslanan yanaşması mütləqdir. Azərbaycanın Yaxın Şərqə münasibətdə tutduğu mövqe də məhz bu parametrlərə əsaslanır. Azərbaycan İsrail -Suriya münasibətlərində yeni mərhələnin başlanması, prosesin dialoq müstəvisində inkişafı üçün vacib bir fəaliyyət ortaya qoymaqdadır. Bakıda tərəflər arasında danışıqlar prosesinin bir neçə raundunun reallaşması da deyilənləri təsdiqləyir - başqa sözlə, Bakı bu gün Yaxın və Orta Şərqdə yaradılması nəzərdə tutulan sülh prosesinin uğurlu memarlarından biridir. Biz hər zaman bildirmişik ki, istənilən qarşıdurmanın uzunmüddətli həlli yalnız dialoq, qarşılıqlı hörmət və ədalət üzərində qurula bilər. Bu səbəbdən Bakının Misir sammitinə dəvəti təsadüfi deyil - bu, beynəlxalq ictimaiyyətin Azərbaycana olan etimadının göstəricisidir.

## Yaxın Şərq Sülh Sammitinin hədəfləri - dünyaya sülh!

Misirdə keçirilən Yaxın Şərq Sülh Sammiti regionun son onilliklərdə yaşadığı ən dərin siyasi dialoqlardan birinə çevrilmək perspektivnə malikdir. Sammitin əsas məqsədi bölgədə davam edən münaqişələrə - xüsusilə Fələstin-İsrail, Suriya-Livan və Yəmən böhranlarına diplomatik həll mexanizmləri tapmaqdır. Bir çox siyasi mütəxəssislər proqnozlaşdırır ki, Sammitin nəticələrindən irəli gələcək fəaliyyət əsasən həm humanitar vəziyyəti, həm də təhlükəsizlik arxitekturasını yeniləməyə hədəflənəcək. Çünki bu gün Yaxın Şərqdə yaranacaq sabitlik tək bir dövlətin deyil, bütün bəşəriyyətin ümumi qazancı olacaq. Sülhün bərqərar olması yalnız bölgəyə deyil, dünya iqtisadiyyatına, enerji bazarlarına və beynəlxalq ticarətə də yeni nəfəs gətirəcək. Çünki Yaxın Şərq hələ də dünyanın enerji və logistik arteriyalarından biridir və burada sabitlik qlobal qiymətlərin, nəqliyyat-logistika zəncirinin və qida təhlükəsizliyinin təminatçısı deməkdir.

Hələ tədbirdən öncə məsələ ilə bağlı bəzi fikirlərini bölüşən qərb politoloqları müzakirələr zamanı "Yeni Yaxın Şərq diplomatiyası" anlayışının da gündəmə gəlmə ehtimalını dəyərləndirirdi. Bir müddət öncə də xarici KİV-lərdə müzakirə olunan bu konsepsiya region ölkələrinin bir-birinə qarşı deyil, bir-biri ilə əməkdaşlıq içində inkişafını nəzərdə tutur. Beləliklə də, artıq dövlətlər güc balansını dəyişmək deyil, ümumi rifah naminə diplomatik koordinasiyanı dərinləşdirmək niyyətindədir.

Ən mühüm məqam və gözlənti isə ondan ibarətdir ki, sammitin nəticələri sadəcə bəyanatla və ya hər hansı imzalanan başqa bir sənədlə məhdudlaşaraq qalmasın - burada konkret əməkdaşlıq planları, infrastruktur layihələri və enerji təhlükəsizliyi üzrə mexanizmlər də təqdim olunsun. Məhz bu amil Yaxın Şərqdə sülh ideyasını bu dəfə kağız üzərində deyil, real siyasi gündəlikdə formalaşdırmaq gücünə malik olacaq.

## Azərbaycanın beynəlxalq nüfuzu və ardıcıl siyasi qətiyyəti...

Azərbaycanın Yaxın Şərq sammitində xüsusi dəvət əsasında təmsil olunması bir çox nüanslardan xəbər verir:

- Bakı artıq regional deyil, qlobal diplomatik gücə çevrilib;
- Bakı həm Qərb, həm Şərq, həm də Qlobal Cənubla münasibətlərində davamlı siyasət aparır. Bu siyasət qarşılıqlı hörmət, iqtisadi əməkdaşlıq və siyasi dialoq prinsiplərinə əsaslanır;
- Münasibətlərdə yalnız şəffaflığa və dürüstlüyə, dotsluğa əsaslanan tezislər ortaya qoyur;
- Coğrafi imkanların yaxın-uzaq tərəfdaşlar üçün səmərəli istifadə halına gətirir;
- İstər ənənəvi, istərsə də yeni enerji mühitində etimadlı tərəfdaşlıq və strateji əməkdaşlıq müstəvisi yaradır;
- Nəhayət, fərqli sivilizasiyaların birgə əməkdaşlıq planlarının formalaşdırılmasında yer alır.

Məsələn, Azərbaycan ABŞ ilə strateji tərəfdaşlıq əlaqələrinə malikdir. Enerji təhlükəsizliyi, terrorizmə qarşı mübarizə, iqlim məsələləri kimi sahələrdə əməkdaşlıq iki ölkə münasibətlərini keyfiyyətcə yeni səviyyəyə qaldırıb. Eyni zamanda, Azərbaycan Qlobal Cənub ölkələri ilə də çoxşaxəli əlaqələr qurur. Afrika, Asiya və Latın Amerikası dövlətləri ilə iqtisadi əməkdaşlıq platformaları, humanitar və texnoloji layihələr reallaşdırır - bu isə onu göstərir ki, Bakı öz siyasətini yalnız regional maraqlarla məhdudlaşdırmır.

Paralel olaraq, beynəlxalq aləmdə artan nüfuz həm də Azərbaycanın müstəqil siyasət yürütməsindən qaynaqlanır. Bakı heç bir blokun diktəsi ilə deyil, milli maraqlar və beynəlxalq hüququn prinsipləri çərçivəsində qərar verir. Bu isə ölkəni bu gün beynəlxalq sistemin sabitləşdirici faktoru kimi göstərir.

Məhz bu ardıcıl siyasətin nəticəsidir ki, Azərbaycan həm Qərb, həm də Şərq paytaxtlarında etibarlı tərəfdaş kimi qəbul olunur. Misirdə keçirilən sülh sammitində Bakının mövqeyinə hörmətlə yanaşılması da bunun sübutudur.

## Bakının sammitdə iştirakı: sülhpərvər mövqenin davamı

Beləliklə, Azərbaycanın Yaxın Şərq Sülh Sammitində təmsil olunması bir daha göstərir ki, Bakı artıq qlobal diplomatiyanın ayrılmaz iştirakçısına çevrilib. Bu iştirak təkcə siyasi deyil, həm də mənəvi mahiyyət daşıyır. Azərbaycan Yaxın Şərqdə baş verən hadisələrə hər zaman ədalət və beynəlxalq hüquq prizmasından yanaşır. Azərbaycan həm Türkiyə-İsrail, həm də Suriya - İsrail ilə münasibətlərdə barışdırıcı və ədalət prizmasında siyasət aparan ölkələrdəndir. Bakı bu münasibətlərin tənzimlənməsində dialoq körpüsü rolunu oynayır. Azərbaycanın bu yöndə təmin etdiyi diplomatik xətt göstərir ki, o, regional sabitliyin təminatçısı olmaqla yanaşı, həm də böyük dövlətlər arasında körpü funksiyasını uğurla yerinə yetirir.

Sülh sammitində Azərbaycanın iştirakı həm də simvolik məna daşıyır: bu, sülhü qələbədən sonra da qorumağın mümkünlüyünü göstərən təcrübənin paylaşılmasıdır. Azərbaycan bu mənada "sülhün bərpası" deyil, "sülhün möhkəmləndirilməsi" modelini təklif edir.

Göründüyü kimi, Bakının sülhpərvər imici artıq beynəlxalq brendə çevrilib. Qlobal təhlükəsizlik, enerji əməkdaşlığı və humanitar diplomatiya sahəsində Azərbaycanın oynadığı rol Yaxın Şərq üçün də nümunə kimi təqdim olunur. Sammitdə iştirak ölkəmizin beynəlxalq arenada etibarlı tərəfdaş, balanslı vasitəçi və humanist diplomatiya nümunəsi olduğunu bir daha təsdiqləyir.

## Sülh çağırışından qlobal əməkdaşlığa

Yaxın Şərq Sülh Sammiti bir daha onu göstərir ki, dünya artıq qarşıdurma yox, qarşılıqlı anlaşma əsasında yeni səhifə açmaq istəyir. Bu prosesdə Azərbaycanın rolu sadəcə müşahidəçi deyil, həm də fəal iştirakçıdır. Azərbaycanın sammitdə iştirakı bir daha təsdiqləyir ki, Bakı müharibə təcrübəsini sülh dərsinə çevirə bilən nadir ölkələrdəndir. Ölkəmizin diplomatik fəlsəfəsinin əsasında duran prinsip aydındır - ədalət olmadan sülh, sülh olmadan inkişaf mümkün deyil.

Bu gün Azərbaycan təkcə regionda deyil, beynəlxalq aləmdə də sülhün, təhlükəsizliyin və əməkdaşlığın etibarlı dayağıdır. Misirdə keçirilən sammitdə Bakının səsi bu istiqamətdə atılan qlobal addımların mühüm bir hissəsidir.

Yaxın Şərqdə sülh bərqərar olarsa, bu, dünyanın hər nöqtəsinə təsir edəcək. Çünki sülh - təkcə coğrafi məsələ deyil, həm də bəşəri məsuliyyətdir. Və bu məsuliyyəti öz üzərinə götürən dövlətlər sırasında Azərbaycanın adı artıq ön sıradadır.

*Pərviz SADAYOĞLU*

# Regionun nəhəng sənaye platforması

## Xəzər İnşaat Həftəsi dünyanın nüfuzlu tikinti şirkətləri arasında yeni əməkdaşlıq körpüləri yaradır

Oktyabrın 14-də Bakıda 30-cu Xəzər İnşaat Həftəsi ("Caspian Construction Week") işə başlayıb. Regionun inşaat sektorunda aparıcı sənaye platformalarından biri olan tədbir bir neçə beynəlxalq sərgini özündə birləşdirir. Belə ki, 30-cu Azərbaycan Beynəlxalq İnşaat Sərgisi - "BakuBuild", 5-ci Yubiley Azərbaycan Beynəlxalq Qarabağın Bərpası, Yenidənqurması və İnkişafı Sərgisi - "Rebuild Karabakh", 17-ci Beynəlxalq İstilik, Havalandırma, Kondisionerləşdirmə, Su təchizatı, Santexnika və Üzgüçülük Hovuzu Sərgisi - "Aquatherm Baku", 4-cü Xəzər Beynəlxalq Plastik və Polimer Sənayesi Sərgisi - "Plastex Caspian" sərgiləri, eləcə də 13-cü Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat Sərgisi ("Road&Traffic") Xəzər Həftəsi nəhəng sənaye formatında bir araya gəlir.

### 30 il əvvəl əsası qoyulmuş ənənə...

30 illik tarixə malik Xəzər İnşaat Həftəsi artıq milli brend kimi beynəlxalq şirkətlərin işgüzar təqvimində özünə layiqli yer tutur. Son 30 ildə 58 ölkədən 6500-dən çox şirkəti, eləcə də 200 mindən artıq peşəkar ziyarətçini bir araya gətirən "Caspian Construction Week" sərgisi inşaat sahəsinin aparıcı platforması kimi mühüm sərgiləri birləşdirməklə tanınmış mütəxəssisləri bir araya toplayır və biznes üçün yeni əməkdaşlıq imkanları yaradır, innovativ texnologiyaların tətbiqinə, azad edilmiş ərazilərdə layihələrin reallaşdırılmasına və beynəlxalq investisiyaların artmasına mühüm töhfə verir. Hər il regional əhəmiyyətini hər il artıran bu tədbir tikinti sektoruna aid ən qabaqcıl texnologiyalar, yeni inşaat modelləri üzrə təcrübələrin bölüşülməsi, təchizatçılar və tikinti peşəkarlarının yeni işgüzar əlaqələrinin qurulması, potensial tərəfdaşlıqlıq şəbəkəsinin genişləndirilməsi baxımından əlverişli fürsət və imkanlar deməkdir.

Bu ilki sərgilərdə 17 ölkədən 299 şirkət yer alır. İştirakçı ölkələrə Azərbaycanla yanaşı, Almaniya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Bolqarıstan, Böyük Britaniya, İsrail, İran, İtaliya, Qazaxıstan, Çin, Rusiya, Rumıniya, Türkiyə, Özbəkistan, Çexiya, Cənubi Koreya daxildir. Almaniya, İtaliya, Özbəkistan və Türkiyə sərgidə milli pavilyonlarla təmsil olunur. Bu isə tədbirin qlobal əhəmiyyətini daha da möhkəmləndirir.

Sərgidə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Qarabağ Dirçəliş Fondu, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Tikinti İstehsalçıları Assosiasiyası, Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA), Azərbaycan Memarlar İttifaqı və digər təşkilatların dəstək verməsi tədbirin əhəmiyyətini daha da artırır, inşaat sənayesi cəmiyyətində dərin inamı yüksəldir. Eyni zamanda, Azərbaycan iqtisadiyyatının ən dinamik və strateji əhəmiyyətə malik sahələrindən biri kimi tikinti sektorunda investisiya maraqlarına və fəallığa töfhə verir.

### "Rebuild Karabakh" sərgisi əlamətdar dövrə təsadüf edir

Məlumdur ki, Azərbaycanın qazandığı tarixi Zəfərdən sonra tikinti sənayesinin yeni landşaftı formalaşıb - Qarabağ və Şərqi-Zəngəzurda iri-miqyaslı inşaat layihələrinin icrası, şəhərsalma və yol-nəqliyyat infrastrukturunun yaradılması genişmiqyaslı tikinti proqramlarını ərsəyə gətirməkdədir. Bu xüsusda Azərbaycanda təşkil edilən inşaat sərgiləri bu quruculuq sənayesinin təşviqində və xarici şirkətlərin prosesə qoşulmasında mühüm rol oynaycaq.

Prezident İlham Əliyevin tədbir iştirakçılarına müraciətində də vurğulandığı kimi builki 5-ci "Rebuild Karabakh" sərgisi Azərbaycanın dövlətçilik tarixində əlamətdar bir dövrə - suverenliyimizin və milli birliyimizin təcəssümü olan mühüm ildönümlərinə təsadüf edir. Konstitusiyamızın qəbulunun otuz illiyi və Vətən müharibəsində qazandığımız tarixi Zəfərin beş illiyininin böyük qürur hissi ilə qeyd edildiyi cari ildə Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi işləri geniş vüsət almaqdadır. Hazırda "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə uğurla aparılan genişmiqyaslı bərpa və quruculuq işləri regionun simasını köklü şəkildə dəyişir. Müasir şəhərsalma konsepsiyalarına uyğun şəhərlər salınır, yeni məktəblər, xəstəxanalar, yol-nəqliyyat və kommunikasiya infrastrukturu inşa olunur, iş yerləri açılır, "yaşıl enerji" zonaları və sənaye parkları yaradılır. Qarabağ artıq yalnız milli qürurumuzun rəmzi deyil, həm də XXI əsrin dayanıqlı inkişaf məkanı kimi formalaşır.




### Qarabağ və Şərqi-Zəngəzurda tikinti sərmayələri üçün yeni fürsətlər...

İşğaldan azad edilmiş ərazilərdə dayanmadan fasiləsiz aparılan ilə tikinti-quruculuq işlərində "ağıllı tikinti" modeli də genişlənməkdədir. Bölgədə icra edilən tikinti işlərində ekoloji yönümlü tikintilərə daha çox önəm verilir, ekoloji sağlam tikinti materiallarının istehsalı və bu prosesə bərpa olunan enerjinin inteqrasiyası da daxil olmaqla beynəlxalq təcrübələrdən geniş istifadə olunur.

Bu baxımdan, "Rebuild Karabakh" sərgisi azad edilmiş ərazilərdə ən yeni "ağıllı tikinti" texnologiyalarının, innovasiyaların tətbiqi, bu sahəyə dünyanın iri tikinti-biznes sektorlarının nümayəndələrinin cəlb edilməsi sahəsində yaxşı fürsət hesab edilə bilər. Eyni zamanda, sərgiyə qatılan biznes icmasının azad ərazilərin yenidən qurulmasında potensial investor kimi qoşulması imkanlarının təşviqi, onlar arasında yeni müqavilələrin bağlanması üçün də əlverişli zəmin yaradır. Həmçinin, sərgi sahəsinin satışından əldə olunan gəlirlər azad olunan ərazilərin bərpası və yenidən qurulması istiqamətində görülən işlərə dəstək olmaq məqsədilə, Qarabağ Dirçəliş Fonduna ianə edilir ki, bu amil də "Rebuild Karabakh"ın əhəmiyyətini artırır. Bu baxımdan "Rebuild Karabakh" sərgisi yerli və beynəlxalq iştirakçılar üçün xüsusi əhəmiyyət kəsb edir. Sərgidə müasir texnologiyalar və qabaqcıl innovativ həllər təqdim olunur, birgə layihələr və tərəfdaşlıq imkanları müzakirə edilir, regionun sosial-iqtisadi inkişafı üçün gələcəyə yönələn yeni fürsətlər yaradılır. Artıq beşinci dəfə keçirilən bu tədbir Azərbaycanın əldə etdiyi nailiyyətləri dünyaya nümayiş etdirməklə yanaşı, ölkəmizin qlobal miqyasda investisiya, texnologiya və innovasiya mərkəzi kimi mövqeyini daha da möhkəmləndirir.

### Milli irsin təşviqi - "Qarabağ Kuboku"

"Rebuild Karabakh" sərgisi regionun mədəni irsinin qorunması və tanıdılması istiqamətində vacib platformaya çevrilib. Yubiley ilində əsas tədbirlərdən biri Qarabağ mətbəxinə və milli kulinariya irsinin təbliğinə həsr olunmuş Milli Mətbəx İrsi Çempionatı - "Qarabağ Kuboku" olacaq. Bu layihə Qarabağın zəngin mədəniyyətini beynəlxalq ictimaiyyətə təqdim etməyə imkan yaradacaq. Sərginin sonuncu günü "Qarabağ Kuboku" Fərdi Yarışlarının mükafatlandırma mərasimi keçiriləcək. Beləliklə, "Rebuild Karabakh" sərgisi işgüzar, sosial və mədəni istiqamətləri özündə birləşdirərək Qarabağın gələcək inkişafı üçün təcrübə mübadiləsi və yeni ideyaların formalaşdığı mühüm platforma rolunu oynayacaq.

Bu mötəbər sərgi davamlı quruculuğun, tərəqqinin və sülhün reallığını təcəssüm etdirən, eyni zamanda, gələcəyə istiqamətlənmiş önəmli tədbirdir. Burada qurulan tərəfdaşlıqlar tikinti sənayeçiləri arasında qarşılıqlı etimadı möhkəmləndirir, yeni əməkdaşlıq körpüləri yaradır və Qarabağı dayanıqlı inkişaf gündəliyinin mərkəzinə çevirir.

Beləliklə, Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən sərgilər, xüsusilə də "Rebuild Karabakh" qlobal inşaat icması və qitəni təmsil edən nüfuzlu sənaye iştirakçıları arasında tərəfdaşlıq münasibətlərinin qurulmasına, müasir inkişaf və investisiya təşəbbüslərinin müəyyən edilməsinə təkan verəcək. Həftə çərçivəsində təşkil edilən görüş və müzakirələr yeni tikinti və "yaşıl inşaat" innovasiyaları üzrə hədəf prinsiplərinə çatmaqda mühüm platforma rolunu oynayacaq. Eyni zamanda, Qarabağın dirçəldilməsində yeni imkan və potensialları daha da səfərbər edərək quruculuğun yeni səhifəsini yazacaq.

***ELBRUS CƏFƏRLİ***

# İslamabad Bəyannaməsində nələr var?



Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin üçüncü üçtərəfli görüşü İslamabad Bəyannaməsinin qəbul olunması ilə başa çatıb.

Üçtərəfli görüşün yekun iclasında çıxış edən Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiq tədbirin üç qardaş ölkə arasında bir sıra aktual məsələlərin ətraflı müzakirəsi baxımından yaxşı imkanlar yaratdığını bildirib. O, bu platformanın əhəmiyyətini, üç dost və qardaş ölkə parlamentləri arasında əlaqələrin daha da genişləndirilməsində mühüm rolunu qeyd edib.

İclasda çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova üçtərəfli görüşdə regionda və ümumən beynəlxalq aləmdə baş verən proseslərin və ölkələrimiz arasındakı əlaqələrin nəzərdən keçirildiyini, ortaq maraq kəsb edən məsələlərə dair fikir mübadiləsi aparıldığını söyləyib. Ölkələrimiz arasındakı əlaqələrin - istər Azərbaycan-Türkiyə və Azərbaycan-Pakistan, istərsə də Türkiyə-Pakistan əlaqələrinin, o cümlədən qarşılıqlı dəstək, birlik və həmrəyliyin ən yüksək səviyyədə olduğunu deyən Milli Məclis sədrinin sözlərinə görə, bu əlaqələr dövlətlərarası münasibətlərin bütün istiqamətlərini əhatə edir və günbəgün daha da möhkəmlənir və dərinləşir. Bu əlaqələrdə diqqət çəkən əsas məqam odur ki, ölkələrimiz arasındakı bütün məsələlər məhz dostluq və qardaşlıq prizmasından nəzərdən keçirilir.

S.Qafarova cari ilin may ayında Laçında keçirilmiş Üçtərəfli Zirvə Görüşündə ölkə liderlərinin - İlham Əliyevin, Rəcəb Tayyib Ərdoğanın və Məhəmməd Şahbaz Şərifin qətiyyəti sayəsində qardaş ölkələrimiz arasındakı əlaqələrin artıq üçtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. Onun sözlərinə görə, dünyanın geosiyasi xəritəsinə nəzər yetirsək, belə yaxın əlaqələri olan başqa üç ölkəyə çox az rast gələrik. Azərbaycan, Pakistan və Türkiyə arasındakı bu üçtərəfli əlaqələr həqiqətən də strateji tərəfdaşlıq xarakteri daşıyır.

Spiker qardaş ölkələrimiz arasındakı əlaqələrə uyğun olaraq, parlamentlərimizin də üçtərəfli əməkdaşlığının mövcud vəziyyəti və gələcək perspektivləri, bu mexanizmi daha da gücləndirmək, parlament diplomatiyasının effektiv alətlərindən birinə çevirmək yolları haqqında fikirlərini tədbir iştirakçıları ilə bölüşüb.

Parlament üzvləri arasında müzakirə olunan mövzulara toxunan Milli Məclisin sədri, ərazi bütövlüyü və suverenliyinin müdafiəsi, xarici təhdidlərə qarşı həmrəylik məsələsini ölkələrimiz arasında qardaşlığın və qarşılıqlı dəstəyin ən yaxşı şəkildə nümayiş etdirən bir məsələ olduğunu qeyd edib və bu istiqamətdə müzakirələri faydalı hesab edib. Spiker həmçinin, iqlim dəyişiklikləri və dayanıqlılıq mövzusunun əhəmiyyətini qeyd edərək, ölkəmizin bu sahədə gördüyü işlər, o cümlədən, Azərbaycanın qardaş Türkiyədə baş vermiş zəlzələ, Pakistandakı daşqınlar zamanı öz qardaşlıq dəstəyini göstərdiyini vurğulayıb. O, digər tərəfdən, COP29 çərçivəsində Azərbaycanın qazandığı nailiyyətləri xüsusi qeyd edib. Parlament üzvlərimizin bu məsələlər haqqında müzakirələrini faydalı hesab edərək, gələcək əməkdaşlıq çərçivəsində iqlim dəyişiklikləri və təbii fəlakətlərə qarşı mübarizə məsələsinin daha çox əhatə olunmasının vacibliyini vurğulayıb.

Azərbaycan parlamentinin spikeri, həmçinin üçüncü üçtərəfli görüşün yekunu olaraq, qəbul olunan İslamabad Bəyannaməsinin ölkələrimiz arasındakı qardaşlıq əlaqələrinin bütün aspektlərini əhatə etdiyini, parlamentlərimizin birgə fəaliyyətinin əhəmiyyətini vurğuladığını, o cümlədən, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yeni imkanları təsbit etdiyini söyləyib. Onun sözlərinə görə, Bəyannamə həmçinin regional və qlobal proseslərə münasibətdə ortaq baxışlarımızı əks etdirir.

Milli Məclisin sədri sonda bir daha vurğulayıb ki, parlamentlərimiz arasındakı bu səmərəli əməkdaşlıq formatı birgə səylərimizlə bundan sonra da uğurla davam edəcək. Bu əməkdaşlıq xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, ölkələrimizin maraqlarına xidmət edir, onlar arasındakı dostluq və qardaşlıq əlaqələrinin, birlik və həmrəyliyin daha da güclənməsinə töhfə verir.

Sonra çıxış edən Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş da ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da dərinləşdirilməsi üçün parlament diplomatiyasının imkanlarından istifadə edilməsinin vacibliyini qeyd edib. O, Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin üçüncü üçtərəfli görüşünün uğurla nəticələndiyini qeyd edərək, vurğulayıb ki, görüşün nəticələri gələcək əməkdaşlıq üçün çox faydalıdır.

***Nardar BAYRAMLI***

# Azərbaycan həqiqətləri ABŞ-da...

**Azərbaycan tolerant və multikultural ölkə olaraq dinlərarası dialoqa böyük töhfələr verir. Təsadüfi deyil ki, beynəlxalq ictimaiyyət hər zaman ölkəmizin bu istiqamətdəki fəaliyyətini təqdir edir. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Allahşükür Paşazadənin ABŞ-a səfəri də Azərbaycanın sivilizasiyalar və dinlərarası dialoqun inkişafındakı rolunun beynəlxalq müstəvidə təbliği baxımından əhəmiyyət kəsb edir.**

## Şeyxülislam Allahşükür Paşazadənin ABŞ-a səfəri...

Qeyd edək ki, səfər çərçivəsində şeyxülislam Allahşükür Paşazadə BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşüb. QMİ-nin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə A.Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın salamlarını BMT Baş katibinə çatdırıb. Səmimi dialoq şəraitində keçən görüşdə dinlərarası dialoqa dair konstruktiv müzakirələr aparılıb.

Bundan əlavə, Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyətinin səfər çərçivəsində Vaşinqtonda, Ağ Evdə ABŞ vitse-prezidenti ofisinin Milli təhlükəsizlik məsələləri üzrə xüsusi müşaviri Endryu Lumis, Vitse-Prezident Aparatının strateji məsələlər üzrə xüsusi müşaviri Maykl İmbrenda və Dövlət Departamentinin Siyasət Planlaşdırma Şöbəsinin üzvü Conatan Askonas ilə görüşü olub. Görüşdə tərəfləri maraqlandıran məsələlər, o cümlədən avqustun 8-də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın tərəfindən paraflanan sülh sazişindən sonra Cənubi Qafqaz regionu üçün yaranmış yeni fürsətlər, ölkəmizin nümunəvi məzhəblərarası və dinlərarası təcrübəsinin beynəlxalq miqyasdakı önəmi, Azərbaycan-ABŞ dinlərarası əməkdaşlıq münasibətlərinin inkişafı və davamlı sülhün qurulmasında multikultural dəyərlərin rolu kimi mövzular müzakirə olunub.

## Erməni kilsəsi sülh prosesinə mane olur



Şeyxülislam A.Paşazadə Prezident Donald Tramp tərəfindən “Azadlığa Dəstək Aktı”nın Azərbaycanla bağlı 907-ci düzəlişinin icrasının dayandırılmasını yüksək qiymətləndirərək, buna görə ABŞ tərəfinə öz minnətdarlığını bildirib. O, Ağ Ev nümayəndələrini Dövlət Departamentində ABŞ Beynəlxalq Din Azadlığı Komissiyasının üzvləri ilə keçirdiyi görüş haqqında məlumatlandırıb, qarşı tərəfi Azərbaycanı din azadlığının vəziyyətinə görə Xüsusi Müşahidə Siyahısından çıxarmağa çağırıb. Qeyd edib ki, belə bir siyahıda Azərbaycanın adının yer alması ölkədə hökm sürən multikultural mühitə və dinlərarası harmoniyaya uyğun deyil.

ABŞ nümayəndələrinin diqqətinə çatdırılıb ki, son vaxtlar erməni kilsəsi və diasporu sülh prosesinə mane olur, revanşizmi təşviq edir. Halbuki sülhə dəstək vermək üçün dini və ictimai qurumlar siyasətçiləri dəstəkləməlidirlər. Azərbaycan isə bəzi erməni dairələrindən, xüsusilə erməni kilsəsindən fərqli olaraq, məhz bu cür yanaşma nümayiş etdirir. Tərəflər xüsusilə mürəkkəb geosiyasi bölgədə yerləşən Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün təmin olunması üçün xalqlar və dinlər arasında qarşılıqlı etimad və əməkdaşlığın vacibliyini vurğulayıblar. ABŞ tərəfi bu kontekstdə Allahşükür Paşazadənin səfərinin xüsusi əhəmiyyət daşıdığını qeyd edib. Şeyxülislam bildirib ki, rəhbərlik etdiyi Qafqaz Müsəlmanları İdarəsi sülhün və birgəyaşayışın təşviqi istiqamətində səylərini davam etdirəcək, həmçinin ABŞ-ın dini qurumları ilə birgə layihələrin həyata keçirilməsinə hazırdır.

Görüşdə iştirak edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və Milli Məclisin deputatı Cavanşir Paşazadə ölkəmizdə mövcud olan multikultural mühitdən və dövlət-din münasibətlərinin inkişafında parlamentin rolundan danışıblar.

Səfər çərçivəsində A.Paşazadə Vaşinqtonda ABŞ Beynəlxalq Din Azadlığı Komissiyasının üzvləri ilə də görüşüb. Görüşdə QMİ sədri Azərbaycanda mövcud olan unikal dinlərarası əməkdaşlıq və məzhəblərarası anlaşma mühiti, dövlət-din münasibətlərinin yüksək səviyyəsi barədə ətraflı məlumat verib. Azərbaycanda məzhəblər arasında anlaşmanın uğurlu modelinin Bəhreyn İslamdaxili Dialoq Konfransında nümunə olaraq qəbul edildiyini diqqətə çatdıran A.Paşazadə gələn il Azərbaycanda Müsəlman Ağsaqqalları Şurasının, BMT-nin Sivilizasiyalar Alyansının həmtəşkilatçılığı ilə İslamdaxili dialoqa və İslamofobiya ilə mübarizəyə həsr olunmuş mötəbər tədbirlərin keçiriləcəyini vurğulayıb.

ABŞ Beynəlxalq Din Azadlığı Komissiyasının sədri, xanım V. Hartzler bu il Azərbaycana səfəri zamanı ölkəmizdə qonaqpərvərlik və inkişaf müşahidə etdiyini bildirib. İslamofobiya ilə mübarizəyə dair ardıcıl konfransların keçirilməsinə toxunan V. Hartzler bu forumların keçirilməsini alqışladıqlarını, bunun real nəticələrinin olmasının mühüm olduğunu deyib. Azərbaycanda şiə məzhəbinin bəzi mənsublarına qarşı guya ayrı-seçkiliklərin olmasından narahatlığını dilə gətirən komissiya sədrinin iradlarına Azərbaycan nümayəndə heyəti dəqiq, tutarlı dəlillərlə cavab verib. Bildirilib ki, söhbət din pərdəsi altında dövlətçiliyə qarşı konkret təhdid, çevriliş cəhdi və terrorun qarşısının alınmasından gedir və burada məzhəb amilinin heç bir rolu yoxdur.

## “Özümüzü mənəvi müstəvidə də müdafiə edirik”

ABŞ Beynəlxalq Din Azadlığı Komissiyasının sədr müavini Asif Mahmud Azərbaycanda “Dini etiqad azadlığı haqqında” qanunla bağlı bəzi iradlarını bildirib, bu qanunun beynəlxalq dini azadlıq standartları ilə uzlaşmayan məqamlara, habelə dini ədəbiyyatın senzuraya məruz qalmasına toxunub. Milli Məclisin deputatı Cavanşir Paşazadə isə deyib ki, gənc, müstəqil dövlət olaraq özümüzü mənəvi müstəvidə də müdafiə edirik. Dini ədəbiyyat adı altında ölkəyə ekstremist və radikal ədəbiyyat gətirməyə cəhdlər var və bunun qarşısını almaq üçün müvafiq komissiya kitabları nəzərdən keçirir. Ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsi icmalarla mütəmadi görüşür, onları maraqlandıran məsələləri həll edir.

ABŞ Beynəlxalq Din Azadlığı Komissiyasının üzvü Məhəmməd Elsanusi öz növbəsində Bakıda olarkən keçirdiyi görüşlər barədə danışıb, müsbət inkişafla bağlı məqamlara toxunub. O, narahatedici məqamlardan biri kimi icmaların qeydiyyat məsələsini vurğulayıb, bu prosesin icmaların özlərini azad hiss etməsinin qarşısını aldığına diqqəti çəkib. Şeyxülislam A.Paşazadə dini icmaların qeydiyyatının dövlət tərəfindən aparıldığını, lazım gəldikdə dini mərkəzin öz tövsiyələrini verdiyini xatırladıb. Xüsusi qeyd edib ki, burada məqsəd və məram özlərini dindar kimi qələmə verərək dövlətə qarşı fəaliyyət aparanları əsl dindarlardan ayırd etməkdir. Şeyxülislam Komissiya üzvlərini Azərbaycana bir daha gələrək həqiqəti yerində görməyə, ölkəmizi xüsusi müşahidə siyahısından çıxarmağa çağırıb. Xanım V. Hartzler dəvətdən məmnun olacaqlarını deyib.

Azərbaycandakı Alban-udi icmasının sədri Robert Mobili isə diqqətə çatdırıb ki, əksəriyyəti müsəlman olan sekulyar ölkədə xristian dini icma olaraq özlərini əla hiss edirlər. “Azərbaycan dövləti öz diqqət və qayğısını bizdən əsirgəmir, müsəlman xalq hər zaman bizə dəstək verir. Məbədlərimiz və dilimiz bərpa olunur, müqəddəs kitabımız ana dilimizdə nəşr edilir”, - deyə o əlavə edib.

Görüşdə çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İcraçı direktoru Rəvan Həsənov Azərbaycanın dünyada artan İslamofobiya hallarından narahat olduğunu, eyni zamanda, dinlərarası dialoqda, dünyada müsəlman icmaların hüquqlarının qorunmasında maraqlı olduğunu diqqətə çatdırıb. O, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dini ayrı-seçkiliyin bütün forma və təzahürlərini - islamofobiya, antisemitizm və xristianofobiya ilə mübarizədə oynadığı roldan bəhs edib. Bildirib ki, rəhbərlik etdiyi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu müstəvidə dünyada unikal bir qurumdur.

Qeyd edək ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə keçirdiyi digər görüşlərdə də Azərbaycanla bağlı həqiqətləri diqqətə çatdırıb.

***Nardar BAYRAMLI***

# Qiymətlər artacaq, yoxsa?

## 2025-ci ilin ötən 3 rübündə inflyasiya 5,7 faiz təşkil edib

2025-ci ilin sentyabr ayında ölkəmizdə istehlak qiymətləri indeksi 2024-cü ilin sentyabr ayına nisbətən 5,7 faiz, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 7,9 faiz, qeyri-qida məhsulları üzrə 2,4 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,3 faiz təşkil edib. Ümumilikdə, yanvar-sentyabr aylarında ölkə üzrə inflyasiya əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,7 faiz təşkil edib.

2025-ci il sentyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,7 faiz artaraq 1093,8 manata bərabər olub ki, bu da inflyasiya göstəricinin 2 dəfəyə yaxın üstələnməsi deməkdir.

## Qlobal inflyasiya yüksəlməyib

2025-ci ilin ötən yarım ilində inflyasiya bütün region dövlətlərində, qlobal miqyasda yüksəlib. Dünyada inflyasiya prosesləri sabit qalsa da, bir sıra regionlarda artım meyilləri nəzərə çarpıb. BVF-nin avqust ayında dərc etdiyi “Qlobal İqtisadi İcmal” hesabatına əsasən 2025-ci ilin ötən aylarında enerji və kənd təsərrüfatı məhsullarının qiymətləri bir il əvvəlki səviyyəsindən aşağı olub. Bununla belə, Ukrayna və Yaxın Şərqdəki geosiyasi gərginliklərlə bağlı bəzi bazarlarda davam edən tədarük məhdudiyyətləri fonunda hər iki əmtəə qrupunda qiymətlər hələ də COVID-19-dan əvvəlki orta səviyyədən yuxarı qalır. Dünya Bankının qlobal əmtəə bazarları haqqında son hesabatına əsasən 2025-ci ilin 8 ayı ərzində qeyri-enerji məhsulları üzrə qiymət indeksi ötən ilin

sonuna nəzərən 3,4 faiz azalıb, lakin bəzi əmtəələrin bahalaşması davam edib. Əsas dəyişən qiymət əmsalı qızılda nəzərə çarpıb, bu əlvan metalın qiyməti son 8 ayda 30 faiz artaraq avqust ayında yeni rekord səviyyəyə çatıb.

Qlobal iqtisadiyyat üzrə ümumi mənzərə ölkələr üzrə inflyasiya gözləntilərini də fərqli istiqamətə səmtləndirir. Belə ki, ABŞ-də təklif şoku kimi çıxış edən tariflərin tədricən istehlak qiymətlərinə ötürülməsi və cari ilin ikinci yarısından etibarən inflyasiya təzyiqləri yaratması gözlənilir. Bəzi digər ölkələrdə isə tariflər inflyasiya təzyiqlərini aşağı salan mənfi tələb şoku kimi çıxış edir. Avrozona bölgəsində isə qismən valyutanın bahalaşması və birdəfəlik fiskal tədbirlər hesabına inflyasiya

dinamikasının cüzi səngiyəcəyi gözlənilir. Ümumilikdə, 2025-ci ildə inkişaf etmiş ölkəlöərdə (İEÖ) inflyasiya proqnozu aşağı düşməyəcək, ən nikbn halda sabit qalacaq. İnkişaf etmədkəd olan ölkələrdə (İEOÖ) isə orta dəhliz 2,5-5,4 faiz səviyyəsində fərz edilir.

**İstehlak qiymətləri indeksi, faizlə**

| | 2025-ci ilin sentyabr ayı: əvvəlki aya nisbətən | 2025-ci ilin sentyabr ayı: əvvəlki ilin müvafiq ayına nisbətən | 2025-ci ilin yanvar-sentyabr ayları 2024-cü ilin yanvar-sentyabr aylarına nisbətən |
|---|---|---|---|
| [illegible] | [illegible] | [illegible] | 105,7 |
| qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları | 101,8 | 107,9 | 106,7 |
| qida məhsulları | 101,9 | 108,2 | 106,9 |
| alkoqollu içkilər | 100,0 | 102,9 | 103,3 |
| tütün məmulatları | 100,0 | 102,7 | 102,1 |
| [illegible] | [illegible] | [illegible] | 102,6 |
| ödənişli xidmətlər | 100,6 | 105,3 | 106,8 |

**İstehlak qiymətləri indeksi, əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə**






## Sabit inflyasiya uçot dərəcəsinə də təsir edir

2025-ci ilin ötən aylarında dünya miqyasında inflyasiya təzyiqlərinin zəifləməsi, inflyasiyanın hədəf diapazonuna yaxınlaşacağına dair gözləntilər və iqtisadi artım tempinin yavaşlaması fonunda bir sıra mərkəzi banklar monetar siyasəti tədricən yumşaldaraq siyasət faiz dərəcələrini endirib. Bununla yanaşı, davam edən geosiyasi və geoiqtisadi qeyrimüəyyənliklər şəraitində bəzi mərkəzi banklar daha ehtiyatlı mövqe nümayiş etdirərək faiz dərəcələrini sabit saxlayıb. İl ərzində ABŞ Federal Ehtiyat Sistemi inflyasiyanın hədəfdən yüksək olması, iqtisadi fəallığın davam etməsi və əmək bazarındakı dayanıqlılığı, eləcə də iqtisadi qeyri-müəyyənlikləri əsas gətirərək siyasət faiz dərəcəsini 4,25 faizə endirib. axlamışdır. Risklərin olmasına baxmayaraq, inflyasiyanın azalma trayektoriyasında olması və iqtisadi artımın zəifləməsi fonunda İngiltərə Mərkəzi Bankı siyasət faiz dərəcəsini 4,75 faizdən 4,25 faizə aşağı salıb. Avropa Mərkəzi Bankı isə inflyasiyanın hədəfə yaxınlaşması fonunda iqtisadi artımı dəstəkləmək məqsədilə faiz dərəcəsini 3,15 faizdən 2,15-ə endirib. Çin Xalq Bankı da iqtisadi artımı dəstəkləmək məqsədilə siyasət faiz dərəcəsini 10 baza bəndi azaldaraq 3 faizə endirib. Yaponiya Mərkəzi Bankı inflyasiya risklərinin artdığı şəraitdə qiymət sabitliyinə nail olunması məqsədilə siyasət faiz dərəcəsini

0,25 faizdən 0,50 faizə yüksəldib. Ötən ildən bəri siyasət faizini 21 faiz səviyyəsində sabit saxlayan Rusiya Mərkəzi Bankı, inflyasiya risklərinin zəifləməsi və iqtisadiyyatın balanslı vəziyyətə qayıtması fonunda dövrün sonunda siyasət dərəcəsini bir neçə bənd endirib.

Azərbaycan Mərkəzi Bankının cari il sentyabrın 10-da qəbul etdiyi qərara əsasən, uçot dərəcəsi 7 faiz, faiz dəhlizinin aşağı həddi 6 faiz, faiz dəhlizinin yuxarı həddi isə 8 faiz səviyyəsində dəyişməz saxlanılıb. Qərar ölkədəki mövcud inflyasiya hədəfləri dəhlizinə və gözləntilərə, eləcə də valyuta bazarında vəziyyətə əsasən qəbul edilib. Beləliklə, son qlobal iqtisadi proseslər, daxili makroiqtisadi vəziyyət, valyuta bazarında davam edən sabitlik, həmçinin pul siyasəti qərarlarının ötürücülüyü uçot siyasətində əvvəlki sabit rejimin saxlanılmasını şərtləndirib.

## Maliyyə institutlarının gözləntiləri

Ehtimallara görə, xarici faktorlarda əsas rol oynayan mal və əmtəələrin, xüsusilə də qlobal ərzaq bahalaşması gözlənilmir. Baza ssenarisinə əsasən, illik inflyasiyanın hədəf daxilində olacağı, 2025-ci ilin yekununda 5,7 faiz olacağı gözlənilir. Asiya İnkişaf Bankının (AİB) sentyabr hesabatına əsasən, Azərbaycanda 2025-ci ilin yekununda inflyasiya 5,5 faiz təşkil edəcək. Dünya Bankının proqnozlarına görə, qiymət indeksi cari ildə 5,4 faiz, “S&P Global” (S&P) beynəlxalq reytinq agentliyinin fərziyyələrinə görə, 4,3 faiz, Niderlandın “ING Group” qrupunun gözləntilərinə əsasən 4,8 faiz təşkil edəcək. İqtisadiyyat Nazirliyinin proqnozlarında isə ölkəmizdə illik inflyasiyanı 2025-ci ildə 4,6 faiz, 2026-cı ildə 4 faiz səviyyəsində olacağı fərz edilir.

***E.CƏFƏRLİ***

# Yaxın Şərqə sülh gəldi...

## Saziş imzalandı: Girovlar azad edilir, Qəzza bərpa olunur, HƏMAS silahı yerə qoyur...

Oktyabrın 13-də Şarm əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitində uzun müddətdir ki, gözlənilən sülh sazişi imzalandı. Qeyd edək ki, sazişin imzalanması prosesində İsrail və HƏMAS-ın nümayəndələri iştirak etməyiblər. ABŞ Prezidenti Donald Tramp Misirə gəlməzdən əvvəl İsrailə səfər edib və baş nazir Benyamin Netanyahu ilə görüşüb. Daha sonra Misirə Sülh Sammitinə dəvət alan liderlərin gözü önündə sülh sazişinə imza atılıb. Sənədi dörd vasitəçi ölkə imzalayıb: ABŞ, Qətər, Misir və Türkiyə. Dünyanın 20-dən artıq liderinin iştirakı ilə baş tutan imzalama mərasiminin Qəzza zolağı ətrafındakı vəziyyətə müəyyən aydınlıq gətirəcəyinə ümid bəslənilir.




### 3 mərhələli həll planı...

Sülh sazişinin ilk tələblərindən biri olan girovların azad edilməsi təmin olunub. Bu barədə "Reuters" yazıb. Oktyabrın 13-ü səhər saatlarında İsrail ordusu israilli əsirləri Qəzzanın şimalında qəbul etməyə hazır dayanıb. Əsirlər Beynəlxalq Qırmızı Xaç Komitəsinin avtobusları ilə daşınıb. "Kətaib əl-Qəssam" silahlı qruplaşması bildirib ki, 20 israilli əsiri azad edəcək. Məlumata görə, İsrail ömürlük həbsə məhkum olunmuş 250 fələstinlini, eləcə də 2023-cü ildə həbs edilmiş 1700 Qəzza sakinini azad etməyi planlaşdırır.

Qeyd edək ki, sülh sazişi Donald trampın müəllifi olduğu 20 bəndlik saziş layihəsindən ibarətdir. Xarici KİV-lər yazır ki, 20 bənd üzrə görülməsi nəzərdə tutulan işlər müəyyən mərhələlər üzrə aparılacaq. Belə ki, birinci fazada dərhal atəşkəsin elanı və humanitar fəaliyyət nəzərdə tutulur. Plan bütün hərbi əməliyyatların dayandırılmasını və cəbhə xəttində dondurulmasını, həmçinin bütün yaşayan israilli girovların dərhal azad edilməsini, həyatını itirənlərin isə nəşinin 72 saat ərzində geri qaytarılmasını nəzərdə tutur. Bəlli olduğu kimi, bu mərhələnin artıq icrasına başlanılıb. İkinci mərhələdə isə demilitarizasiya və təhlükəsizlik tədbirləri nəzərdə tutulur. Bu mərhələdə təklif olunan strategiyaya HƏMAS-ın döyüş imkanlarını zərərsizləşdirmək üçün atılacaq addımlar daxildir: ən əsas da, tunellər kimi hücum infrastrukturunun məhv edilməsi. Razılaşmada Qəzzanın terrordan azad və qonşuları üçün heç bir təhlükə yaratmayan zonaya çevriləcəyi bildirilir. Razılaşma, həmçinin dinc yanaşı yaşamaq öhdəliyi götürən HƏMAS üzvlərinə də amnistiya təklif edir. Ölkəni tərk etməyi seçənlərə isə təhlükəsiz keçid vəd edilir. Bundan əlavə, təhlükəsizliyi və uzunmüddətli sabitliyi, sülhü təmin etmək üçün Fələstin polis qüvvələrinin təlimini asanlaşdırmaq üçün əraziyə ABŞ, Ərəb ölkələri və Avropa personalından ibarət müvəqqəti beynəlxalq sabitləşdirmə qüvvəsi yerləşdiriləcək.

Nəhayət, 3-cü mərhələdə idarəetmə və yenidənqurma işlərinə start veriləcək. Bu mərhələdə Fələstin texnokratlarının rəhbərlik etdiyi və gündəlik həyatı idarə etmək və infrastrukturun bərpasına nəzarət etmək üçün beynəlxalq qurum tərəfindən nəzarət edilən keçid administrasiyasının yaradılması planlaşdırılır. Humanitar yardım çatdırılmalarının səmərəliliyini və ədalətliliyini təmin etmək üçün BMT və Qızıl Aypara kimi beynəlxalq təşkilatlar da prosesdə nəzarətçi kimi iştirak edəcək. Bundan əlavə, icmalarını yenidən qurmağı seçənlərə dəstək verməklə fələstinliləri Qəzzada qalmağa təşviq etmək planlaşdırılır. Strategiya Fələstinin uğurlu yenidənqurmasını təmin edəcək. Uzunmüddətli sülhə yol açmaq üçün İsrail və Fələstin arasında dinc, yanaşı yaşama və qarşılıqlı anlaşmaya kömək edən siyasi struktur yaratmaq üçün dialoqa başlanılacaq. Qəzza hökuməti xidmətlərinin və bələdiyyələrin gündəlik əməliyyatlarına cavabdeh olan texnokratik, apolitik Fələstin komitəsi tərəfindən idarə olunacaq. Bu komitə ixtisaslı fələstinlilərdən və beynəlxalq ekspertlərdən ibarət olacaq. Nəzarət isə yeni beynəlxalq keçid orqanı olan "Sülh Şurası" tərəfindən həyata keçiriləcək.

### Tramp Ərdoğana minnətdarlığını bildirib

Sülh sazişinin imzalanmasın mərasimində çıxış edən Donald Tramp bildirib ki, III Dünya Müharibəsi Yaxın Şərqdə başlamalı idi, amma olmayacaq. Bunun qarşısını aldı. O deyib ki, Qəzzaya çoxlu pul gələcək və çoxsaylı yenidənqurma və tikinti işləri aparılacaq. Prezident bildirib ki, bu yenidən qurmaq deyil, əsl quruculuq olacaq. "Təmizləmə və tikinti işləri aparılacaq. Mən böyük sərvətə, gücə və ləyaqətə malik olan çoxsaylı ölkələrin məhz bu gün və son bir həftə ərzində mənim yanıma gəlib Qəzzanın yenidən qurulmasına kömək etmək istədiklərini, lazım olan hər şeyə hazır olduqlarını bildirməkdən məmnunam. Bu, əlbəttə ki, çox puldur, lakin nəhəng ölkələrin sərvəti ilə müqayisədə böyük deyil", - deyə Tramp əlavə edib.



Tramp bildirib ki, bu gün təkcə Yaxın Şərq deyil, dünya üçün inanılmaz bir gündür: qeyd edib ki, bu, illərdən bəri əldə oluna bilməyən ən böyük sazişdir.

Tramp həmçinin Yaxın Şərq Sülh Sammitində Rəcəb Tayyib Ərdoğana təşəkkür edib. "Son zamanlar baş verən bəzi münaqişələrə baxsanız, Türkiyə Prezidenti onların həllində başda idi və o, onları qazanırdı. Dövlət başçısının sözlərinə görə, Türkiyə dünyanın ən güclü ordularından birinə sahibdir. "Hər dəfə ona ehtiyacım olanda o, mənim yanımda olub. Mən Türkiyə Prezidenti Ərdoğana təşəkkür etmək istəyirəm. O, heç vaxt uğursuz olmur. O, heyrətamizdir. Ona görə də dostluğa görə sizə təşəkkür etmək istəyirəm",- deyə Tramp vurğulayıb.

### BMT alqışladı, Misir Prezidenti təşəkkür etdi...

Bu arada BMT Qəzzada atəşkəs rejimi ilə bağlı razılaşmanı alqışlayıb. Qurumun Baş katibi Antonio Quterreş israilli girovların və fələstinli məhbusların azad edilməsi də daxil olmaqla, ABŞ prezidenti Donald Trampın təklifi əsasında Qəzzada atəşkəs rejiminin davam etdirilməsini alqışladığını bəyan edib. Bu barədə BMT sözçüsünün bəyanatında deyilir. O, Qətər, Misir, ABŞ və Türkiyə hökumətlərinə davamlı vasitəçilik səylərinə görə təşəkkür edib və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) bütün girovların azad edilməsinin təhlükəsiz və humanist şəkildə həyata keçirilməsindəki rolunu vurğulayıb. "Birləşmiş Millətlər Təşkilatı və tərəfdaşları Qəzzada əməliyyatları sürətlə genişləndirir. BMT agentlikləri aylarla əlaqəsi kəsilmiş ərazilərdəki icmalara yardımlar çatdırır. Baş katib bütün tərəfləri atəşkəsi möhkəmləndirməyə və onu davamlı sülhə çevirməyə çağırır",- deyə bəyanatda qeyd olunub.

Qeyd edək ki, tədbirdə çıxış edən Misirin Prezidenti Əbdülfəttah əs-Sisi müharibənin sona çatdırılması üzrə plana əsasən, Misir yaxın vaxtlarda Qəzzanın yenidən qurulması və inkişafı üzrə beynəlxalq konfrans keçirməyi planlaşdırdığını bildirib. Misir lideri bu planın ikidövlətli həll üçün lazımi siyasi imkan yaradacağına ümid etdiyini deyib. Öz növbəsində Əbdülfəttah əs-Sisi ABŞ-a, Türkiyəyə və Qətərə səmimi səylərinə görə təşəkkür edib.

### Dünya mediası yazır...

Donald Trampın sülh planının ilk mərhələsi olan HƏMAS tərəfindən israilli girovların azad edilməsi isə qlobal medianın əsas mövzusuna çevrilib. "Times of Israel" Tramp administrasiyasının mövqeyini humanist və açıq adlandırıb. "The Wall Street Journal" isə yazıb ki koordinasiya edilmiş təzyiq HƏMAS-ı istəmədiyi sövdələşməni qəbul etməyə məcbur etdi. Nəşr sazişi Tramp komandasının Misir, Qətər və Türkiyə də daxil olmaqla, Yaxın Şərq güclərini bir araya gətirmək üçün həftələrlə davam etdirdiyi səylərin nəticəsi adlandırıb. "The New York Times" hələ aylar öncə girovların azad edilməsi ilə bağlı imkanların olduğunu yazıb. "Əl-Cəzirə", "The Guardian" kimi aparıcı nəşrlər də məsələyə diqqət yönəldiblər.

***P.İSMAYILOV***

# ABŞ-ın şərti var...

## Ağ Evdə növbəti Tramp-Zelenski görüşü

**Bu həftə ABŞ Prezidenti Donald Trampın Ukrayna lideri Volodimir Zelenski ilə növbəti görüşü baş tuta bilər. Belə ki, ABŞ-ın dövlət rəhbəri Şarm əl-Şeyxdən Vaşinqtona qayıdarkən təyyarəsində jurnalistlərə açıqlamasında oktyabrın 17-də Zelenskini Ağ Evdə qəbul etmək niyyətini təsdiqləyib. Qeyd edək ki, Britaniyanın "Financial Times" qəzetinin jurnalisti Kristofer Miller "X" sosial media platformasında üç mənbəyə istinadən yazıb ki, Tramp oktyabrın 17-də Vaşinqtonda Zelenski ilə görüşə bilər. O xatırladıb ki, Tramp və Zelenski ötən həftəsonu telefon danışığı aparıblar. Jurnalist onu da qeyd edib ki, Ukrayna nümayəndə heyəti bu həftə Vaşinqtonda amerikalı həmkarları ilə bir sıra danışıqlar aparmağı planlaşdırır. "Axios" nəşri isə yazıb ki, Zelenskinin Vaşinqtona getməsinin tək səbəbi silahların, xüsusilə uzaqmənzilli silahların alınması ilə bağlıdır.**

### Diqqət "Tomahavk" raketlərinə yönəlib...

Donald Tramp hazırda Ukraynaya "Tomahavk" raketlərinin çox məhdud tədarükünü nəzərdən keçirir. "Reuters"in məlumatında qeyd olunur ki, Tramp Kremli Kiyevlə danışıqlara məcbur etmək üçün Ukraynanı bu raketlər ilə təmin edə bilər. Qeyd edək ki, bu raketlər 2500 km uçmaq qabiliyyətinə malikdir və Ukraynanın arsenalında ən güclü silaha çevrilə bilər. Vitse-prezident J.D.Vens bazar günü bəyan edib ki, Birləşmiş Ştatlar Ukraynanın "Tomahavk" raketlərini almaq xahişini nəzərdən keçirir. Volodimir Zelenski Vaşinqtondan sözügedən raketləri Ukraynaya tədarük etmək istəyən Avropa ölkələrinə satmağı xahiş edib. Vens bəyan edib ki, Donald Tramp sazişlə razılaşıb-razılaşmamaq barədə "son qərarı" verəcək. "Financial Times" qəzeti isə yazır ki, ABŞ artıq bir neçə aydır Ukraynanı Rusiyanın enerji infrastrukturlarına uzaqmənzilli zərbələr endirməsində köməklik göstərir - Bu addımlar Rusiya iqtisadiyyatını zəiflətmək və Prezident Vladimir Putini danışıqlara məcbur etmək məqsədi daşıyan koordinasiya olunmuş səylər çərçivəsində atılır. Qəzetin məlumatında vurğulanır ki, ABŞ kəşfiyyatı Ukraynaya PUA-ların Rusiyanın hava hücumundan müdafiə sistemlərindən yayınması üçün zərbə marşrutu, hündürlüyü və vaxtı kimi detallarda dəstək verir. Vaşinqton planlaşdırmanın bütün mərhələlərində birbaşa iştirak edir. Uzaqmənzilli zərbələrin hədəflərini Ukrayna seçir, ABŞ isə bu obyektlərin zəif tərəfləri ilə bağlı kəşfiyyat məlumatı təqdim edir. Bundan əlavə, Vaşinqton Rusiyanın daxilində prioritet hədəfləri də müəyyən edir.




Məsələ ilə bağlı politoloq Rəşad Bayramov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Tramp yalnız iki yolla Rusiyanı danışıqlar masasına oturmağa məcbur edə bilər. "Oktyabrın 11-12 - də Tramp ilə Zelenski arasında iki telefon danışığı baş tutub.

### Kiyev ballistik raket istəyir...

Hər iki telefon danışığında Ukrayna ordusunun hava hücumundan müdafiə sistemləri ilə təmin olunması, o cümlədən Ukraynaya uzaqmənzilli ballistik raketlərin ötürülməsi və bu raketlərdən istifadə edilməsi ilə bağlı müzakirələr aparılıb. Bu ayın 17-də Ağ Evdə baş tutacaq Tramp-Zelenski görüşündə də bu məsələ yenidən müzakirə olunacaq. Lakin əsas məsələ burasındadır ki, Rusiya ilə Ukrayna arasında üç ildən çoxdur davam edən müharibəni dayandırmaq üçün Kremlə daha da ciddi təzyiq göstərilməlidir. Moskva nə öz vədlərini yerinə yetirir, nə də öz ilkin şərtlərindən geri çəkilir. Rusiyaya ən uyğun təzyiq yolu bu ölkə üzərində bu günə kimi tətbiq olunan sanksiyaların daha da ağırlaşdırılması və Ukraynaya hərbi dəstəyin artırılmasıdır. Müharibənin Rusiyanın dərinliklərinə keçməsi nəticə etibarı ilə Rusiyanın daxilində fikir ayrılıqlarının meydana gəlməsinə, Moskvanın hərbi-maliyyə imkanlarının tükənməsinə və Kremlin Ukrayna ilə danışıqlara qayıtmasına gətirib çıxara bilər", - deyə R.Bayramov vurğulayıb. Ekspert əlavə edib ki, "Tomahavk" raketləri Ukrayna üçün o qədər də prioritet deyil. "Ukrayna əsas diqqətini "Tomahavk"-dan daha güclü və daha çox uzaq məsafələrə uçmaq qabiliyyətinə malik olan ballistik raketlərə diqqətini yönəldib. Kiyev məhz bu kimi silahlarla Rusiyada mühüm hərbi, enerji və digər xüsusi əhəmiyyət kəsb edən strateji obyektləri sıradan çıxarmaq niyyətindədir. "Tomaqavk" və uzaqmənzilli raketlərin Ukraynaya tədarük edilib-edilməməsinə gəlincə, hesab edirəm ki, Tramp Moskvanı sülhə məcbur etmək istəyirsə, Ukraynanı bu silahlarla təmin etməlidir. Həmin raketlər Ukraynaya ötürüldükdən sonra Rusiyada hansı hədəflərin vurulması istiqamətində mühüm planlaşdırılmalar aparılacaq. Tramp əsasən Rusiyanın neft və qaz sektoruna aid olan obyektlərin hədəfə alınmasına üstünlük verir. Təbii ki, Ağ Evin rəhbəri Kiyevdən bununla bağlı zəmanət aldıqdan sonra Ukraynaya bu raketlərin tədarükü barədə qərar qəbul edə bilər.

***Yunis ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Köhnə yaralarımız sağalır...

**İşğaldan azad olunmuş ərazilərimizə qayıdış yalnız coğrafi dəyişiklik deyil, həm də bir millətin tarixinə, mədəniyyətinə və gələcəyinə olan qayıdışıdır. Bu, həm də bir xalqın faciəvi illərdən sonra öz varlığını və kimliyini yenidən tapmasının simvoludur. İşğaldan azad edilmiş ərazilərimizin ən mühüm və simvolik bölgələrindən biri Xocalıdır. Burada baş verənlər yalnız Azərbaycan xalqının deyil, bəşəriyyətin yaddaşında silinməz izlər buraxmışdı. Xocalıya qayıdış, həm də bu şəhərin faciəsinin, bir millətin başına gələn ən ağır sınaqların üstündən keçərək gələcəyə olan inamın rəmzidir. Xocalı deyəndə gözlərimizin önündə ermənilərin törətdiyi əsrin soyqırımı, yer üzündən silinmiş şəhər, dinc insanların kütləvi qətliamı, yeri-göyü inlədən faciələr canlanırdı. Körpələrimizin vəhşiliklə qətlə yetirilməsi, bir yandan da qədim Azərbaycan torpağı olan şəhərin işğal edilərək yerlə-yeksan olması ürəyimizdə sağalmaz bir yara açmışdı. Düz 30 ilə yaxın bu ürək ağrısı ilə yaşadıq... Faciəmiz nə qədər böyük idisə, bizə bu müsibəti yaşadan düşmən üzərində qələbəmiz də o qədər möhtəşəm oldu. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror tədbirləri nəticəsində Xocalı işğaldan azad edildi. Yevlax rayonunda keçirilən danışıqların nəticəsində Xocalı rayonu 24 sentyabr 2023-cü ildə Azərbaycan Respublikasının nəzarətinə keçdi. Ölkə başçısı oktyabrın 15-də isə Xocalıda üçrəngli bayrağımızı ucaltdı.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış” istiqaməti üzrə hazırlanmışdır**

## Xocalının iki kəndinə növbəti köç yola salındı

Xocalı şəhəri erməni vandalizminin ilk ünvanlarından biri idi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən soyqırımı ermənilərin müharibə cinayətləri sırasında xüsusi amansızlığı ilə fərqlənir. Qeyd olunan tarixdə keçmiş sovet ordusunun 366-cı alayının dəstəyi ilə Xocalıya hücum çəkən ermənilər bir gecənin içində bütün şəhəri yerlə-yeksan etdilər. Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır.

## 8 ailə tamamilə məhv edilmişdi...

Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlifdərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib.

## 54 ailənin sevinci

Dünən Xocalı rayonunun Şuşakənd və Təzəbinə kəndlərinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Şuşakənd kəndinə 27 ailə - 116 nəfər, Təzəbinə kəndinə isə 27 ailə - 117 nəfər köçürülür.

Qeyd edək ki, köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

## Gələcəyə baxış...

“Böyük Qayıdış”ın tam həyata keçməsi yalnız infrastrukturun bərpasından ibarət deyil. Bu, həm də insan amilini, mədəniyyətin qorunmasını, təhsil və səhiyyənin inkişafını, sosial qayğıların təmin olunmasını ehtiva edən kompleks bir prosesdir. Qayıdışın gələcəyi, həmçinin Azərbaycanın regionda daha güclü bir dövlət olmasını, həm də dünyanın müxtəlif guşələrindən gələn investisiyaların artmasını təmin edəcək.

Azərbaycanın işğaldan azad etdiyi torpaqlara qayıdışı, yalnız bir xalqın yaşamaq uğrunda mübarizəsinin simvolu deyil, həm də regionda sülh və əməkdaşlığın təməlini qoyan böyük bir addımdır. Bu, həmçinin, insanın iradəsinin, gücünün və ümidi qorumağın möhtəşəm bir göstəricisidir. 30 il əvvəl başlanmış bu yol, hazırda yeni bir mərhələyə qədəm qoyur və gələcəyə ümidlə baxan bir xalqın mübarizəsini təcəssüm etdirir.

“Böyük Qayıdış” həm də insanın öz tarixi və mədəniyyəti ilə barışmasının, köhnə yaraların sağalmasının simvoludur. Bu yolda Azərbaycanın qarşısında hələ çox işlər dayanıb, lakin bir o qədər də imkanlar və ümidlər var.

*Yeganə*

# Dənizkənarı Milli Parkdakı attraksionlar...

## Təhlükəsizlik necə qorunur?

Parklarda və əyləncə məkanlardakı attraksionlar nə qədər əyləncə və adrenalin mənbəyi olsa da, bəzən ölümlə nəticələnən qəzaların əsas səbəbi də ola bilir. Daha çox azyaşlı və yeniyetmələrin marağını cəlb edən bu qurğuların təhlükəsizliyi vacib məsələdir.

Dünəndən etibarən Bakının Dənizkənarı Milli Parkındakı attraksionlar yenidən fəaliyyətə başlayıb. Bir müddət əvvəl istismar müddəti başa çatdığı və təhlükəsizlik tələblərinə cavab vermədiyi üçün fəaliyyəti dayandırılan attraksionlar yenilənib.

Hazırda sözügedən ərazidə tamamilə yeni, beynəlxalq standartlara cavab verən, müasir və təhlükəsiz attraksionlar quraşdırılıb. İctimai rəyi və təhlükəsizlik amilini nəzərə alan idarə attraksionların yenilənməsi istiqamətində müvafiq işlər görüb. Dənizkənarı Milli Parkın ənənəvi əyləncə zonası yenidən ziyarətçilərin ixtiyarına verilib.

## Nasazlıq aşkar edilərsə...

Mövzu ilə bağlı “Yeni Azərbaycan”a açıqlama verən təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev bildirib ki, attraksionlar təhlükə potensialı olan obyektlər sırasına daxildir və onların istismarı mütləq təhlükəsizlik qaydalarına uyğun şəkildə həyata keçirilməlidir.

Onun sözlərinə görə, bu obyektlər ildə azı bir dəfə texniki baxışdan keçirilməli, sazlığı və təhlükəsizlik göstəriciləri müvafiq qurumlar tərəfindən yoxlanılmalıdır: “Əgər yoxlama zamanı nasazlıq aşkar edilərsə, həmin attraksionun istismarına icazə verilmir. Bu halda istismarçı tərəfindən nasazlığın aradan qaldırılması və atraksionun tam texniki hazır vəziyyətə gətirilməsi təmin olunmalıdır”.



## Attraksion istismarçılarının nəzərinə!



Texniki baxışdan keçmiş attraksionlara sertifikat verildiyini deyən ekpert əlavə edib ki, bununla yanaşı, attraksionu işlədən şəxslər də bu sahədə lazımi bilik və bacarığa malik olmalı, onlar da müvafiq sertifikasiyadan keçməlidirlər: “Attraksionun istismarı zamanı hər hansı bir problem müşahidə olunarsa, onun istifadəsinə dərhal son qoyulmalıdır”.

## Bu halda istifadə yolverilməzdir!

Eskpert onu da nəzərə çatdırıb ki, nasazlıqların kustar üsullarla aradan qaldırılması və attraksionun bu halda istifadəyə verilməsi yolverilməzdir. E.Nurəliyev izah edib ki, bu obyektlərdən əsasən uşaqlar istifadə edir və hər hansı bir texniki nasazlıq ciddi və ağır nəticələrə səbəb ola bilər: “Attraksionlar gündəlik olaraq texniki baxışdan keçirilməli və bu barədə xüsusi jurnalda qeydlər aparılmalıdır”.

## Gündəlik yoxlama tədbirləri həyata keçirilir

Dənizkənarı Bulvar İdarəsindən bildirilib ki, Dənizkənarı Milli Park ərazisindəki attraksionlardan istifadə edən ziyarətçilərin təhlükəsizliyini və rahatlığını təmin etmək məqsədilə lazımi işlər görülüb. Qeyd olunub ki, Milli Park ərazisindəki bütün attraksionlarda İdarənin tabeliyindəki Qurğuların istismarı şöbəsinin ixtisaslaşmış əməkdaşları tərəfindən gündəlik əsasda nəzarət-yoxlama tədbirləri həyata keçirilir.

Bildirilib ki, bununla yanaşı, mütəmadi qaydada kənar mütəxəssislər tərəfindən qurğuların texniki təhlükəsizlik tələblərinə uyğunluğu yoxlanılır və mühəndis-texniki heyətin bilik səviyyəsi mütəmadi qiymətləndirilir. Həmçinin attraksionlarda defektoskopiya, ölçü işləri, sınaq və yoxlamaların aparılması məqsədilə əlavə yoxlamalar həyata keçirilib: “Bir qayda olaraq əlverişsiz hava, xüsusilə, güclü külək baş verdiyi zamanlarda Milli Park ərazisindəki attraksionlar təhlükəsizlik səbəbindən fəaliyyət göstərmir. Xüsusilə, ölçülərinə görə fərqlənən və daha mürəkkəb mexanizmi ilə hava şəraitinin təsirlərinə daha çox məruz qalan “Panorama” attraksionu küləyin sürəti 11 m/s-dən artıq olduqda, eləcə də tufan, yağış, ildırım, dolu və ya qar kimi əlverişsiz hava şəraitində fəaliyyət göstərmir. Bu tədbirlər ziyarətçilərin təhlükəsizliyinin təmin olunması və hər kəsin rahat istirahətinə xidmət edir”.

*Yeganə BAYRAMOVA*

# Azercell-in dəstəyi ilə fəaliyyət göstərən “Azərbaycan Uşaq Qaynar Xətti”nə 2025-ci ilin 3-cü rübündə 1600-ə yaxın müraciət daxil olub




**Müraciətlərin böyük hissəsi 15-18 yaş aralığındakı yeniyetmələr tərəfindən edilib**

Azercell-in dəstəyi ilə fəaliyyət göstərən “Azərbaycan Uşaq Qaynar Xətt” xidməti (AUQX) 2025-ci ilin iyul-sentyabr ayları ərzində 1594 müraciət qəbul edib.

Müraciətlərin 512-si psixoloji dəstəyə ehtiyacla bağlı olub və bu istiqamət ilin ilk altı ayında olduğu kimi üstünlük təşkil edib. Bununla yanaşı, 261 sosial məsələ, 232 zorakılıq halı, 227 hüquqi yardım, 98 təhsil, 14 səhiyyə və 250 müxtəlif məzmunlu sorğu qeydə alınıb.

Statistikaya əsasən, müraciət edənlərin 59%-ni qadınlar, 29%-ni kişilər təşkil edib. Müraciətlərin 12%-i isə xidmətə anonim qaydada ünvanlanıb. Yaş bölgüsünə görə, ən çox müraciət 15-18 yaş aralığındakı yeniyetmələr tərəfindən edilib - 1147. Digər sorğuların 335-i 11-14 yaş, 112-si isə 10 yaşadək uşaqlarla bağlı olub.

Müraciətlərin 50%-i rəqəmsal kanallar (sosial media, e-poçt, veb-sayt) üzərindən, digər 50%-i isə telefon zəngləri vasitəsilə edilib.

Çətin vəziyyətə düşmüş uşaqlara yardım məqsədilə 34 ailə mərkəzə dəvət edilərək hüquqi, psixoloji və psixososial dəstək alıb. Ümumilikdə, 90-dan çox sosial-psixoloji reabilitasiya işi həyata keçirilib, 3 məktəb və ailəyə təcili-təxirəsalınmaz səfər təşkil edilib. Bununla yanaşı, AUQX komandası xidmətin fəaliyyəti barədə məlumatlılığın artırılması məqsədilə maarifləndirmə tədbirləri də keçirib.

“Azərbaycan Uşaq Qaynar Xətt” xidməti fəaliyyətini “Azercell Telekom” MMC və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi, “Ümidli Gələcək” Sosial Təşəbbüslər İctimai Birliyinin idarəçiliyi ilə davam etdirir.

24/7 rejimdə fəaliyyət göstərən Qaynar Xəttə 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, elektron poçt ünvanı (usaqqaynarxetti@gmail.com), Facebook və Instagram sosial şəbəkə profilləri (@usaqqaynarxetti), “Uşaq Qaynar Xətti” mobil tətbiqi və AUQX-nin rəsmi veb-saytı üzərindən müraciət etmək mümkündür.

# Bakcell media nümayəndələri üçün Qarabağa səfər təşkil etdi




İnnovasiya lideri Bakcell media nümayəndələri ilə birlikdə Qarabağa səfər edib. Bakcell tərəfindən təşkil edilən “İnnovasiyaların Qarabağda tətbiqi” adlı iki günlük tədbir çərçivəsində innovasiya və süni intellektin Qarabağın bərpası, dövlət-özəl tərəfdaşlığı, təhsil ekosistemi, həmçinin media sahəsinin inkişafındakı rolu vurğulanıb.

Tədbirdə Bakcell-in baş icraçı direktoru Klaus Müller çıxış edərək Qarabağın gələcəyində innovasiyaların strateji əhəmiyyətini vurğulayıb: “Qarabağ Azərbaycanın gələcəyi və milli qürurunun simvoludur. Bakcell olaraq biz innovasiyaları bu torpağın inkişafı və yenilənməsi üçün aparıcı vasitə kimi görürük. Qarabağın bərpasında süni intellekt və rəqəmsal həllərin tətbiqi regionun sabahını formalaşdıracaq,” - deyə Klaus Müller qeyd edib.

Tədbir çərçivəsində Bakcell-in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanovanın moderatorluğu ilə panel müzakirəsi keçirilib. Müzakirədə Bakcell-in marketinq direktoru Elxan Sadıqzadə, Qarabağ Universitetinin elm və innovasiyalar üzrə prorektoru Fariz Əhmədov, Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyinin sədri Ayaz Mirzəyev və əməkdar jurnalist, ASAN Radio və ASAN TV-nin direktoru Emin Musavi iştirak ediblər.

Paneldə “İnnovasiyaların Qarabağda tətbiqi və mediada innovasiyaların rolu” mövzusu ətrafında fikir mübadiləsi aparılıb. Qarabağda innovativ yanaşmaların tətbiqi, regionun sosial-iqtisadi inkişafında rəqəmsal texnologiyaların əhəmiyyəti, süni intellektin biznes, media və cəmiyyətə təsiri təqdim olunub. Həmçinin, rəqəmsal transformasiyanın potensialı və Qarabağ üçün perspektiv innovativ həllər diqqət mərkəzində olub.

Səfərin ikinci günü “Süni intellekt və innovasiya” mövzusunda təlim və vörkşopla davam edib. Sessiya zamanı media mühitində süni intellektin tətbiqi, yaradıcı sənayelərdə rəqəmsal trendlər və innovativ yanaşmalar müzakirə olunub.

Səfərin sonunda iştirakçılar Şuşa və Xankəndinin əsas tarixi məkanlarını ziyarət edərək, şəhərlərin müasir inkişaf tempi və unikal atmosferi ilə yaxından tanış olublar.




Bakcell-in Qarabağa bu səfəri şirkətin innovasiyaya və milli inkişaf dəyərlərinə əsaslanan strateji yanaşmasının göstəricisidir. Bu təşəbbüs Azərbaycanın innovasiya ekosisteminin inkişafı istiqamətində atılan növbəti addımdır.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5008**
**Sifariş: 2106**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova